QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 201 (6165) 12 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# “İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər*



Bax 2

## “Rusiya ilə Türkiyə atəşkəs monitorinq mərkəzinin yaradılması haqqında razılaşma imzalayıb”



Qarabağın işğaldan azad olunması ilə bağlı Azərbaycanı təbrik edirəm. SİA-nın məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Ərdoğan bildirib: “Rusiya ilə Türkiyə atəşkəs monitorinq mərkəzinin yaradılması haqqında razılaşma imzalayıb.

Bax 6

## Hikmət Hacıyev: “Fransa ermənilərdən daha çox erməni olmağa cəhd göstərir”



*Fransanın rəsmi şəxsləri tərəfindən ATƏT-in Minsk Qrupunun həmsədri kimi Fransanın mandatına zidd olaraq birtərəfli, qərəzli və qeyri-obyektiv bəyanatlar səsləndirilməkdədir. Mandatına uyğun olaraq Fransa neytral tərəf kimi çıxış etməli olduğu...*

Bax 6

## Fransaya “selavi” deyə bilərik!

Bax 14

Əvvəlcədən qeyd edək ki, Qarabağ münaqişəsində istər açıq, istərsə də gizli şəkildə işğalçı Ermənistana dəstək göstərən ölkələrdən biri və birincisi Fransa olub. Ümumiyyətlə, bu ölkənin hətta ATƏT-in Minsk qrupunun həmsədri olmasına baxmayaraq, özünü ermənilərə aşkar tərəf kimi təqdim etməsini sübut edən onlarla faktlar mövcuddur. Hələ Fransanın türk amilinə antipatiya...

## “İşğalçı Ermənistan rəhbərliyinin təslimçiliyə imza atması faktı artıq özü-özülüyündə bütün gerçəkləri ortaya qoyur”



Artıq kimsəyə sirr deyil ki, Azərbaycan Ordusu Qarabağın işğaldan azad edilməsi uğrunda şücaətlər göstərdi və düşmənə sarsıdıcı zərbələr endirməklə onu sülhə, işğal edilmiş ərazilərin qaytarılması üzrə razılaşma bəyannaməsini imzalamağa məcbur etdi...

Bax 7

## Aleksey Makarin: “İlham Əliyev qalib və Milli Qəhrəmandır”



Makarkin Türkiyə sülhməramlıların qərargahında yer almasını bu ölkənin Cənubi Qafqazdakı...

Bax 7

## Ermənistan çalxalanır: Kütləvi etiraz aksiyaları ara vermir!



Bax 6

Azərbaycan tarixi Qələbənin sevincini, Ermənistan isə məğlubiyyətin acısını yaşayır. İrəvanda Ermənistan müxalifətinin mitinqi keçirilib. Artıq həbslər başlayıb...

## XİN: Fransalı nazirin açıqlaması tamamilə qərəzlidir



Bax 12

## İyirmi səkkiz ildən sonra Şuşada ilk azan oxunub



## Gələn il Bakıda keçiriləcək Formula 2 yarışının vaxtı açıqlanıb





Bax 16

# "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər*

***Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.***



Prezident İlham Əliyevin çıxışı -Əziz hərbçilər, Vətən müharibəsi başa çatdı. Azərbaycan bu müharibədə parlaq qələbə qazandı, torpaqlarımız işğaldan azad olundu, işğalçıları torpaqlarımızdan qovmuşuq. Mən gəlmişəm ki, bu parlaq qələbə münasibətilə sizi şəxsən təbrik edim, sizə öz təşəkkürümü bildirim, Azərbaycan xalqının təşəkkürünü bildirim ki, siz qəhrəmancasına döyüşərək, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərmisiniz, yaralanmısınız, öz həyatınızı risk altına atmısınız, böyük şücaət göstərmisiniz.

***"Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi"***



İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq. Mən xahiş edirəm ki, Vətən müharibəsində şəhid olmuş bizim bütün bacı-qardaşlarımızın xatirəsini yad edək, bir dəqiqə sükutla yad edək.



Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah sizə şəfa versin! Allah bütün yaralı əsgər və zabitlərimizə şəfa versin!

Bu qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında biz istədiyimizə nail ola bildik. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini hərbi güc hesabına azad edə bilmişik. Bayrağımızı o torpaqlara sancmışıq, bayrağımızı dalğalandırmışıq. Bu gün bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. Həm siyasi sahədə, həm hərbi quruculuq sahəsində, hərbçilərimizin peşəkarlığı sayəsində biz müharibənin ilk günlərindən üstünlüyü əldə etdik və ardıcıllıqla bu son hədəfə qədər uğurla irəliləmişik.

Döyüşlər şiddətli xarakter almışdı, düşmən müqavimət göstərirdi. Bunu da hər kəs bilsin, bu 44 gün ərzində əldə edilmiş qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb. Düşmən işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmaq istəmirdi və siz - bu döyüşlərdə fəal iştirak edən insanlar yaxşı bilirsiniz ki, 30 il ərzində hansı istehkamlar qurmuşdular. O istehkamları yarıb keçmək, o müdafiə xətlərini dəf etmək çox böyük qəhrəmanlıq və hərbi peşəkarlıq tələb edirdi. Bir də ki, o bölgənin coğrafiyası özlüyündə bir istehkamdır. Şuşa alınmaz qala sayılan bir şəhərdir. Pənahəli xan o şəhəri elə salmışdır ki, Şuşa sakinlərini düşməndən maksimum dərəcədə mühafizə edə bilsin. Şuşanı bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan almaq böyük peşəkarlıq, rəşadət rəmzidir. Düşmən 30 il bu torpaqlarda hazırlıq işləri görüb. Bu hazırlıq işləri onu göstərir ki, öz xoşu ilə torpaqlarımızdan çıxmaq istəmirdi. Əgər istəsəydi, bu məsələlərə nə üçün bu qədər vəsait ayırırdı? Bu, onu göstərir ki, bütün bu dövr ərzində - 30 ilə yaxın dövr ərzində düşmən, sadəcə olaraq, bizi aldadırdı, vasitəçiləri aldadırdı ki, onlar bizim torpaqlarımızdan çıxacaqlar. Bu, yalan idi və döyüş meydanında mövcud olan mənzərə bunu təsdiqləyir.

***Ardı Səh. 3***

# "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər*







*"Bu gün bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. Həm siyasi sahədə, həm hərbi quruculuq sahəsində, hərbçilərimizin peşəkarlığı sayəsində biz müharibənin ilk günlərindən üstünlüyü əldə etdik və ardıcıllıqla bu son hədəfə qədər uğurla irəliləmişik"*



**Əvvəli-Səh-2**

Eyni zamanda, işğaldan azad edilmiş torpaqların mənzərəsi onu göstərdi ki, bu düşmən Azərbaycan xalqına nifrət hissi ilə yaşayıb, əks təqdirdə, bütün binaların sökülməsinə nə ehtiyac var? İşğaldan azad edilmiş ərazilərimizin demək olar ki, 99 faizində bütün binalar dağıdılıbdır - yaşayış binaları, məktəblər, xəstəxanalar, ictimai binalar, tarixi abidələr, əcdadlarımızın qəbirləri, məscidlərimiz. İndi biz bu görüntüləri yayırıq, mətbuatda hər kəs bunu görə bilər. Bu, vəhşilikdir, vandallıqdır, bu, hərbi cinayətdir. Düşmən hərbi cinayət törədib və artıq göstəriş verilib ki, dəymiş ziyanın hesablanması, onun uçotu təmin edilsin. Artıq qruplar səfərbər edilib, beynəlxalq ekspertlər dəvət ediləcək. Beynəlxalq ekspertlərin iştirakı ilə bütün dağıntıların maddi və mənəvi ziyanı hesablanacaq və biz - həm insanlar fərdi qaydada, eyni zamanda, mütəşəkkil qaydada düşməni beynəlxalq məhkəmələrə verəcəyik, onlar təzminat ödəyəcəklər, öz çirkin əməllərinə cavab verəcəklər və cavab verirlər.

Biz çalışırdıq ki, bu məsələ sülh yolu ilə həll olunsun. O cümlədən, mən 17 il ərzində ölkə başçısı kimi çalışırdım ki, məsələ sülh yolu ilə həll olunsun və bu məsələnin uzanmasının əsas səbəbi də budur. Bir də beynəlxalq vasitəçilər bizi inandırırdılar ki, bu məsələ sülh yolu ilə həll oluna bilər. Ancaq son bir il ərzində gördük ki, bizi sadəcə olaraq aldadırlar, sülh prosesi demək olar, iflic vəziyyətə düşmüşdü. Ermənistanın yeni rəhbərliyi qəbuledilməz, zərərli addımlar və ifadələrlə faktiki olaraq danışıqlar prosesini məhv etmişdi və son aylar ərzində bunu heç də gizlətmirdi. Nümayişkaranə elə addımlar atılırdı ki, həm bizə, həm bütün dünyaya göstərsinlər ki, işğal edilmiş torpaqlar əbədi işğal altında qalacaq. Onlar müxtəlif xəritələr dərc etmişdilər. Bu xəritələrdə "Dağlıq Qarabağ Respublikası"nın sərhədlərini müəyyən etmişdilər, o sərhədlərin içərisinə bütün işğal edilmiş torpaqlar da daxil idi. Onlar bizim tarixi şəhərlərimizin adlarını dəyişdirmişdilər, yeni eybəcər adlar vermişdilər. Bütün kəndlərimizin adlarını dəyişdirmişdilər. Tarixi-mədəni irsimizi silmək istəyirdilər. Xaricdən erməniləri Şuşaya gətirib məskunlaşdırmaq istəyirdilər. Yeni kommunikasiyaların, yolların çəkilişi nəticəsində o məskunlaşmanı, xüsusilə Arazboyu yerləşən rayonlarda o məskunlaşmanı sürətləndirmək istəyirdilər. Xaricdə yaşayan ermənilərin maliyyə və siyasi dəstəyi hesabına bir neçə ölkədə bəzi bələdiyyələr artıq "Dağlıq Qarabağ Respublikası"nın tanınması haqqında qərarlar qəbul etmişdilər. Bütün bunlar nəyi göstərir? Bütün bunlar onu göstərir ki, onlar hesab edirdilər, bax, bu yollarla həm işğalı qanuniləşdirəcəklər, həm də qondarma kriminal qurumun tanıdılması istiqamətində uğurlar qazanacaqlar. Görəndə ki, bizi, sadəcə olaraq, aldadırlar, bizi, müqəddəs yerlərimizi təhqir etməyə çalışırlar, biz sözümüzü dedik və mən bunu gizlətmirdim. Bütün bu dövr ərzində - 17 il ərzində demişdim ki, əgər bu məsələ sülh yolu ilə həll olunmasa, bunu hərbi yolla həll edəcəyik. Kim nə deyir-desin, bu gün də eyni fikirdəyəm, eyni sözlərimi deyirəm. Bu 44 gün ərzində mənə nə qədər zənglər oldu, nə qədər siqnallar göndərildi ki, dayanın, dayanın. Deyirdim ki, şərt qoyuram düşmən qarşısında, çıxsın torpaqlarımızdan biz dayanaq. Bəyanat versin ki, çıxıram, biz dayanaq. Cədvəl versin, tarix versin, biz dayanaq. Amma düşmən hesab edirdi ki, bizim uğurlu hücumumuzun qarşısını ala bilər.

Artıq birinci həftələrdən sonra dərk etdilər ki, bizim qabağımızda dura bilməyəcəklər. Ona görə beynəlxalq ictimaiyyətə daha fəal şəkildə müraciət etməyə başladılar ki, beynəlxalq təşkilatlar, bəzi ölkələr bizi dayandırsınlar.

*Ardı Səh. 4*

# "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər*

Əvvəli-Səh-3

Mən isə deyirdim ki, heç kim bizi dayandıra bilməz, sona qədər gedəcəyik. Paşinyan şərtlərimi qəbul etməli, bəyan etməlidir ki, filan tarixdə filan rayonlardan çıxır və buna nail olduq. Noyabrın 9-da imzalanmış birgə bəyanat faktiki olaraq Ermənistan sülh kapitulyasiya aktı idi. Necə ki, vaxtilə İkinci Dünya müharibəsi başa çatandan sonra Hitlerin əlaltıları müttəfiq ölkələrin hərbi rəhbərlərinin qarşısında kapitulyasiya aktını imzalamışlar, mən də deyirdim ki, eyni qaydada Paşinyan canlı formatda, videokonfrans şəklində kapitulyasiya aktını imzalamalıdır. Amma açığını deyim, ondan sonra Rusiya Prezidenti Vladimir Putin məndən xahiş etdi ki, mən bu məsələdə çox da təkid etməyim. Mən hesab etdim ki, onsuz da Paşinyan kifayət qədər alçaldıldı, öz çirkin əməllərinə görə cəzalandırıldı, faktiki olaraq diz çökdü, mənim bütün şərtlərimi qəbul etdi. İmzalanmış bəyanatda Ağdam, Laçın, Kəlbəcər rayonlarından işğalçı qüvvələrin çıxarılmasının cədvəli də təsdiq olundu. Dedim etiraz etmirəm. Dedim getsin harada istəyir imzalasın, qaranlıq bir otaqda, bir anbarda, kameralardan uzaq bir yerdə imzalasın. Belə də oldu. Mənim və Prezident Putinin imzalanma mərasimini bütün Azərbaycan xalqı gördü. Paşinyan, sən harada imzalamısan bu sənədi? O qədər də əhəmiyyətli deyil. Çünki indi onu tapmaq mümkün deyil. Heç kim də soruşa bilməz, ay Paşinyan, sən bunu harada imzalamısan?

Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Bu tarixi missiyanı siz icra etmisiniz - Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib. Əlbəttə ki, bizim güclü ordumuz var, texniki təchizat da yüksək səviyyədədir. Bütün dünya gördü ki, biz hansı texniki imkanlardan istifadə edirik. Onu da deyə bilərəm ki, bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda, operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir. Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir.

Xalqımızın duyğularını təsəvvür etmək çətin deyil. Mən bu dönəmdə hər gün minlərlə məktub alıram. Sevinclə dolu, minnətdarlıqla dolu, qürur hissi ilə dolu məktublar məni doğrudan da çox duyğulandırır.



*"Türkiyənin siyasi və mənəvi dəstəyi bu Qələbənin qazanılmasında çox böyük rol oynamışdır. Çünki Prezidentin, Qardaşımın ilk saatlardan dediyi "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözləri bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi"*



Ardı Səh. 5

# "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər*

**Əvvəli-Səh-4**

Bu gün bizim televiziya kanallarımız, internet saytlarımız uzun illər məcburi köçkün həyatı yaşamış insanları, onların duyğularını, onların sözlərini ictimaiyyətə təqdim edəndə onların ən çox sevdiyi və dediyi ifadəni mən bildirmək istəyirəm. Deyir ki, artıq mən qaçqın deyiləm. Bilirsiniz bu, nə deməkdir? Bu, bəlkə də ən xoşbəxt anların təzahürüdür, həm bu insanların həyatında, həm bizim hamımızın həyatında və mənim həyatımda. Deyir ki, mən artıq köçkün, qaçqın deyiləm. Onlar bu daşı öz ətəyindən tökmək istəyirdilər. Onlar mənfur düşmən tərəfindən bizə yapışdırılmış belə bir ifadədən öz canlarını qurtarmaq istəyirdilər və bu gün gəldi.

Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz. Mən onlara bizim bu qəhrəman əsgər və zabitlərimizin hüzurunda müraciət edərək deyirəm: Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq. Bax, burada oturanlar, bizim minlərlə əsgər və zabitlərimiz sizi öz doğma dədə-baba torpaqlarınıza qaytarırlar. Biz Azərbaycan



nan əksər şəhid ailələrimizin məişət problemlərini demək olar ki, həll etdik. Bu il 1500 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin ediləcək. Bu gün buradan bizim bütün aidiyyəti qurumlarımıza göstəriş verirəm ki, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş insanların yaxınlarına qısa müddət ərzində həm maddi dəstək göstərilməlidir, eyni zamanda, indi onların uçotu aparılır. Dəqiq uçot aparılandan sonra onlara mənzillərin, evlərin verilməsi təmin ediləcəkdir.

Mən bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm. Artıq müvafiq göstəriş verilibdir. Mən artıq göstəriş vermişəm və sizin qarşınızda bunu bəyan etmək istəyirəm ki, Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcək. Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcək. Bu orden və medalların adlarını da mən təklif etmişəm. Hesab edirəm ki, bu adlar da sən öz təşəkkürümü bildirim, sizi təbrik edim. Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar. Bir daha sizi təbik edirəm, tezliklə sağalın, adi həyata qayıdın. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

xxx

Baş leytenant Mail Əsgərov: Həqiqi hərbi xidmətimi ehtiyatda olan zabit kimi başa vurmuşdum və ehtiyata buraxılmışdım. Sizin əmrinizlə qismən səfərbərlik elan olunanda mən də yenidən hərbi xidmətə, ordu sıralarına qayıtdım və düşmənlə Füzuli rayonu istiqamətində vuruşduq, orada da yaralandım. Çox fəxarət hissi keçirirəm ki, döyüş yoldaşlarım mənim missiyamı yarımçıq qoymadılar, qələbə çaldılar.

Yaralanandan sonra müalicə aldığım xəstəxanada Sizin torpaqlarımızın işğaldan azad olun-

> **"Mən də deyirdim ki, eyni qaydada Paşinyan canlı formatda, videokonfrans şəklində kapitulyasiya aktını imzalamalıdır. Amma açığını deyim, ondan sonra Rusiya Prezidenti Vladimir Putin məndən xahiş etdi ki, mən bu məsələdə çox da təkid etməyim. Mən hesab etdim ki, onsuz da Paşinyan kifayət qədər alçaldıldı, öz çirkin əməllərinə görə cəzalandırıldı, faktiki olaraq diz çökdü, mənim bütün şərtlərimi qəbul etdi"**

dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq. İlk növbədə, əlbəttə, təhlükəsizlik tədbirləri görülməlidir. Mənfur düşmən o bölgələrdə demək olar ki, hər yerə minalar döşəyib. İndi minalardan təmizləmə prosesi getməlidir. Biz indi beynəlxalq təşkilatları da cəlb edəcəyik. Çünki qısa müddət ərzində bunu etmək üçün bizdə daxili imkanlar məhduddur. İlk növbədə, təhlükəsizlik, ondan sonra infrastruktur, ondan sonra bütün başqa bərpa məsələləri öz həllini tapacaq. Eyni zamanda, bildiyiniz kimi, bu 44 gün ərzində düşmən öz məğlubiyyətinin acısını mülki vətəndaşlardan çıxarmaq istəyirdi. Bunun nəticəsində 93 mülki şəxs həlak oldu, 400-dən çox mülki şəxs yaralandı, 3 mindən çox bina ya dağıldı, yandı, ya da ki, ziyan gördü. Mən artıq göstəriş vermişəm, bölgələrə qruplar göndərilir, vurulmuş ziyan hesablanır. Dağılmış bütün evlərin hamısı dövlət hesabına yenidən tikiləcək, zərər görmüş bütün evlər dövlət tərəfindən bərpa ediləcək. Vətəndaşlarımızın itirilmiş mülkiyyəti bərpa ediləcək, itirilmiş ev heyvanları vətəndaşlara veriləcək. Yəni, bizim vətəndaşlarımız tam əmin ola bilərlər ki, onların itirilmiş bütün mülkiyyəti bərpa ediləcək. Mən söz verirəm ki, onlar üçün tikiləcək evlər, əvvəlki evlərdən daha yaxşı olacaq, daha keyfiyyətli olacaq, daha geniş olacaq. Biz bunu edəcəyik. Bizim üçün xalqımızın rifahı, təhlükəsizliyi birinci məsələdir. Ancaq bu dövr ərzində mənim üçün ondan da vacib məsələ torpaqlarımızın qaytarılması idi, ərazi bütövlüyümüzün bərpası idi, bayrağımızın Şuşada ucaldılması idi, işğal altında olan bütün başqa torpaqlarda bayrağımızın qaldırılması idi. Buna nail olduq!

Biz tarixi anlar yaşayırıq. Görürsünüz ki, küçələrdə insanlar bu bayramı necə qeyd edirlər. Bu bayramı bütün Azərbaycan qeyd edir, bütün dünya azərbaycanlıları qeyd edirlər. Bu bayram qardaş Türkiyədə bizdəki kimi qeyd olunur. Bu, təbiidir. Çünki biz bir millət, iki dövlətik. Bu günlər ərzində əziz Qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana dəfələrlə öz təşəkkürümü bildirmişəm. Dünən də telefonla danışmışıq. Yenə də təşəkkürümü bildirdim. Türkiyənin siyasi və mənəvi dəstəyi bu Qələbənin qazanılmasında çox böyük rol oynamışdır. Çünki Prezidentin, Qardaşımın ilk saatlardan dediyi "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözləri bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi. Bütün bu dövr ərzində həm Prezident, həm nazirlər, vəzifəli şəxslər daim bizə öz dəstəyini ifadə etmişlər. Görürsünüz, nə qədər heyətlər gəlir. Demək olar ki, hər həftə Türkiyədən bir neçə heyət gəlir. Türkiyədən bizə dəstək və həmrəylik nümayişi Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

İndi həyatımızda yeni dövr başlayır. Bu dövr ölkəmizin xoşbəxt gələcəyini təmin edəcək. Sizin həyatınızda yeni dövr başlayır. Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək. Siz əmin ola bilərsiniz. Sizin gələcək həyatınızla bağlı mən bəri başdan bütün dövlət qurumlarına, özəl şirkətlərə müraciət edirəm, bildirirəm ki, hərbçilərimizi, qəhrəmanlıq göstərmiş, yaralanmış hərbçilərimizi işlə təmin etmək üçün xüsusi addımlar atılacaqdır. Biz bunu daim nəzərə alacağıq.

Şəhid ailələrinin problemləri öz həllini tapacaq. Biz növbədə dayasizin xoşunuza, Azərbaycan xalqının xoşuna gələcək. Göstəriş vermişəm ki, düşmənin qənimət götürülmüş hərbi texnikası Bakıya gətirilsin. Tapşırmışam ki, yer seçilsin, o texnikanı biz nümayiş etdirəcəyik. Bütün Azərbaycan xalqı gedib görəcək ki, biz nəyi əldə etmişik. Məhv edilmiş bəzi texnika elə vəziyyətdədir ki, indi onu gətirmək mümkün deyil. Amma bu məlumatı mən ardıcıl şəkildə xalqımıza təqdim edirdim ki, biz düşmənin nə qədər texnikasını məhv etdik. Faktiki olaraq onların ordusunda texnika qalmadı, ordusu demək olar ki, yoxdur. Özləri də bunu etiraf edirlər. Özləri də etiraf edirdilər ki, Azərbaycan onlara qalib gəldi. Yəni, qənimət götürülmüş o hərbi texnikanı nümayiş etdirəcəyik. Planlarım çoxdur. İnşallah, hamısını icra edəcəyik. Bu tarixi Qələbəmizi hüquqi müstəvidə, siyasi müstəvidə daha da möhkəmləndirəcəyik. Bundan sonra vətəndaşlarımız rahat yaşayacaqlar, öz doğma torpağına qayıdacaqlar. Azərbaycan sizin sayənizdə yeni bir dövrə qədəm qoyacaq.

Ona görə bu gün, müharibə başa çatandan dərhal sonra gəlmişəm ki, sizə öz hörmətimi ifadə edim. Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Gəlmişəm ki, sizə şəxması ilə bağlı etdiyiniz çıxışları böyük səbirsizliklə gözləyirdik. O çıxışların içində bizim üçün əhəmiyyət kəsb edən çıxışlardan biri də Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşa şəhərində üçrəngli bayrağın dalğalanması xəbərini eşitmək arzusu idi. Onu da Siz bizə nəsib etdiniz. Ona görə Sizə xüsusi təşəkkürümü bildirəm.

Siz ötən çıxışınızda, daha doğrusu, son çıxışınızda xalqa müraciətlə dediniz ki, biz dəmir yumruq olaraq düşmənə qalib gəldik. Mən bunu belə xarakterizə edərdim ki, bu dəmir yumruq həm xalqımızın birliyi, xalqımızın vəhdəti, ordumuzun gücü və xüsusən qeyd etmək istəyirəm ki, xalqın Sizə olan böyük inamıdır. Yəni, xalqın içində olaraq bunu mən deyirəm, xalqın Sizə olan böyük inamıdır. Bu, qələbəni təmin etdi. Biz o yumruqla düşməni əzdik.

Bu Qələbəni, bu sevinci, bu qalibiyyəti bizə yaşatdığınız üçün Sizə sonsuz təşəkkürümüzü bildiririk. Fürsətdən istifadə edib Qələbəyə görə Sizi təbrik edirəm və Mehriban xanım, Sizi təbrik edirəm. Çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun. Biz bu Qələbəni çoxdan gözləyirdik. Bizim xalqımız bu Qələbəyə layiqdir. Bizim xalq qalib xalqdır. Sağ olun, uşaqlar.

# Hikmət Hacıyev: "Fransa ermənilərdən daha çox erməni olmağa cəhd göstərir"

***Fransanın rəsmi şəxsləri tərəfindən ATƏT-in Minsk Qrupunun həmsədri kimi Fransanın mandatına zidd olaraq birtərəfli, qərəzli və qeyri-obyektiv bəyanatlar səsləndirilməkdədir. Mandatına uyğun olaraq Fransa neytral tərəf kimi çıxış etməli olduğu halda, açıq-aşkar ermənipərəst siyasət yürüdür və tamamilə əsassız şəkildə Azərbaycana qarşı ittihamlar irəli sürür.***



SİA-nın məlumatına görə, bunu Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib. H.Hacıyevin sözlərinə görə, Azərbaycan və Rusiya Prezidentləri və Ermənistanın baş nazirinin birgə bəyanatının qəbul edilməsində Fransanın hər hansı rolu olmayıb. Yəqin ki, Fransa Rusiyanın bu məsələdə rolundan qısqanclıq keçirir: "Ermənistan baş nazirinin bu sənədi imzalaması artıq hər şeyi deyir. İndi Fransa ermənilərdən daha çox erməni olmağa cəhd göstərir.

ATƏT-in Minsk Qrupunun həmsədrləri adından danışmaq üçün Fransanın səlahiyyəti yoxdur. ATƏT-in Minsk Qrupunun həmsədri kimi, Fransa Ermənistanın Azərbaycana qarşı davam edən işğalının aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsi üçün heç bir addım atmadığı halda, indi birtərəfli qaydada canfəşanlıq nümayiş etdirir. Görəsən bu 30 il ərzində Fransanı nə zamansa azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qayıtmaması narahat edibmi? Amma bunun əksinə olaraq, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi və beynəlxalq hüququn aliliyinin təmin olunması Fransanı narahat etməkdə davam edir. Yekunda Fransanın rəsmi qurumlarına onu da xatırlatmaq istərdim ki, Azərbaycanın tarixi şəhəri olan və Azərbaycan xalqının qəlbində xüsusi yeri olan və işğaldan azad edilmiş Şuşa şəhərinin adı "Şuşi" deyil, Şuşadır".

# "Rusiya ilə Türkiyə atəşkəs monitorinq mərkəzinin yaradılması haqqında razılaşma imzalayıb"



Qarabağın işğaldan azad olunması ilə bağlı Azərbaycanı təbrik edirəm. SİA-nın məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Ərdoğan bildirib: "Rusiya ilə Türkiyə atəşkəs monitorinq mərkəzinin yaradılması haqqında razılaşma imzalayıb.

O qeyd edib ki, Türkiyə Rusiya ilə birgə sülhməramlıların tərkibində yer alacaq: "Bəyanatın imzalanması ilə Azərbaycan xalqını və qardaşım İlham Əliyevi təbrik edirəm. Hər zaman olduğu kimi biz Azərbaycanın yanında olduq və işğalın sona çatması üçün hər bir şeyi etdik".

## Hulusi Akar, Zakir Həsənov və digər yüksək vəzifəli hərbçilər görüş keçiriblər



Türkiyə Müdafiə naziri Hulusi Akar, Quru Qoşunları komandanı ordu-generalı Ümit Dündar və Hərbi Hava Qüvvələri komandanı ordu-generalı Hasan Küçükakyüz dünən Azərbaycan Müdafiə Nazirliyinə gələrək, görüş keçiriblər. SİA-nın məlumatına görə, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi rəsmi "twitter" səhifəsində məlumat verib. Görüş zamanı Hulusi Akar Zakir Həsənovu qələbə münasibətilə təbrik edib.

# Ceyhun Bayramov: "Azərbaycanın ərazi bütövlüyü heç zaman danışıqlar predmeti olmayıb"



***İsrailin aparıcı mətbu orqanlarından olan, ingilis və ivrit dillərində dərc olunan "İsrael HaYom" qəzetində Xarici İşlər naziri Ceyhun Bayramovun müsahibəsi dərc edilib.***

Nazir qəzetin bölgədəki son vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsinin həlli, eləcə də Azərbaycan-İsrail ikitərəfli münasibətləri, Azərbaycanda mövcud olan tolerantlıq mühiti və yəhudilərin ölkədə əsrlərlə sülh şəraitində yaşaması ilə bağlı suallarını cavablandırıb.

C.Bayramov Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi, Ermənistanın uzun illər davam edən işğalçı siyasəti və danışıqlar prosesində nümayiş etdirdiyi destruktiv mövqeyindən bəhs edib. O, Azərbaycanın hər zaman münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğunu, lakin Ermənistan rəhbərliyinin məsuliyyətsiz və təxribat xarakterli bəyanatları, həmçinin danışıqlar prosesində tutduğu destruktiv mövqeyinin bölgədəki son gərginliyə gətirib çıxardığını bildirib. Nazir Azərbaycanın ərazi bütövlüyünün heç bir zaman danışıqlar predmeti olmadığını vurğulayıb.

XİN başçısı Yaxın Şərq sülh prosesində inkişafın Azərbaycan tərəfindən diqqətlə izlənildiyini bildirib. O, Yaxın Şərqdə sülh və təhlükəsizliyin bərqərar olunmasına ölkəmizin həmişə dəstək göstərdiyini və "İbrahim razılaşmaları"nın bütün bölgənin inkişafına və rifahına töhfə verəcəyinə inandığını qeyd edib. Nazir, habelə ikitərəfli münasibətlərdən bəhs edərək, ölkələrimiz arasında bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlığın geniş perspektivlərinin mövcud olduğunu vurğulayıb.

Nazir müsahibəsində Azərbaycanda yəhudilərin azərbaycanlılarla birgə əsrlər boyu yaşadıqlarını qeyd edib və bu gözəl ənənənin bu gündə davam etdiyini qürur hissi ilə vurğulayıb. Həmçinin Azərbaycanda yaşayan yəhudi icmasının Azərbaycan-İsrail münasibətlərinə verdiyi töhfəni yüksək qiymətləndirdiyini qeyd edib və bunun münasibətlərin inkişafında aparıcı rol oynadığını bildirib./report

## Leyla Abdullayeva: "Bölgədə nəzarəti Rusiya ilə birlikdə Türkiyə də edəcək"



"Razılaşmaya görə, çıxarılma 20 gün içində tamamlanacaq. Razılaşmanın həyata keçirilməsi ilə bağlı nəzarət mərkəzi yaradılacaq. SİA xəbər verir ki, bunu açıqlamasında XİN sözçüsü Leyla Abdullayeva deyib. L.Abdullayeva bildirib ki, razılaşmada hansısa bir ölkənin adı keçmir: "Bu, suallar yarada bilər. Ancaq bölgədə nəzarətə Rusiya ilə birlikdə Türkiyə də edəcək. Türkiyənin də atəşkəsə nəzarət müşahidə mərkəzində olacağı dəqiqdir".

# Ermənistan çalxalanır: Kütləvi etiraz aksiyaları ara vermir!

***Azərbaycan tarixi Qələbənin sevincini, Ermənistan isə məğlubiyyətin acısını yaşayır. İrəvanda Ermənistan müxalifətinin mitinqi keçirilib. Artıq həbslər başlayıb. Həbs olunanlar arasında "Çiçəklənən Ermənistan" partiyasının rəhbəri Qaqik Tsarukyan da var.***

AZƏRTAC xəbər verir ki, 17 partiyanın iştirakı ilə keçirilən mitinqdə etirazçılar Ermənistanın baş naziri Nikol Paşinyanın istefasını tələb ediblər. Yerli kütləvi informasiya vasitələrinin yaydığı məlumata görə, aksiya iştirakçılarının bəzilərini saxlayıb. Saxlanılanlar arasında "Respublika" partiyasından Eduard Şarmazanov, Boqdan Baqdasaryan, Korena Açemyan da var. Etirazçıların kim olmasından asılı olmayaraq polis onlara şiddət göstərir. Ermənistan baş prokurorluğunun açıqlamasında deyilir ki, hazırda ölkədə hərbi vəziyyətdir və buna görə də belə iğtişaşlar, mitinqlər yolverilməzdir. Aksiya iştirakçıları isə paytaxtın mərkəzindən çəkilmək istəmirlər. Son məlumatlarda müxalifət lideri, "Çiçəklənən Ermənistan" partiyasının rəhbəri Qaqik Tsarukyanın da həbs edildiyi bildirilib. Gecə də İrəvan küçələrindən etirazçıları təmizləmək mümkün olmayıb. Etirazçılar paytaxtın 3 əsas küçə və prospektində - Prezident iqamətgahı, parlament binası və hökumət evinin yerləşdiyi Azadlıq meydanında hərəkəti tam dayandıraraq şəhəri iflic vəziyyətinə salıblar. Narazı kütlə arasında deputatlar və tanınmış ziyalılar da var. Bəzi mənbələrin məlumatına görə, Paşinyanın ətrafında olan məmurlardan da bəziləri etirazçılara qoşulub. Bunlar arasında 3 gün əvvəl Ermənistan milli təhlükəsizlik xidmətinin rəisi təyin edilən Armen Abazyanın da adı hallanır. Deputat, "Çiçəklənən Ermənistan" partiyasının sədr müavini Naira Zöhrabyan bildirib ki, Ermənistanda təcili növbədənkənar parlament seçkiləri keçirilməlidir. O qeyd edib ki, yaranmış vəziyyətdən çıxış yolu baş nazir Nikol Paşinyanın və prezident Armen Sarkisyanın istefasıdır. Əks təqdirdə, yaranmış vəziyyətə görə bütün məsuliyyət hazırkı rəhbərliyin üzərinə düşür.



Narazı və hiddətlənmiş erməni xalqından qaçıb bunkerlərdə gizlənməyə çalışan Ermənistanın müdafiə naziri David Tonoyan isə factor.am portalına verdiyi müsahibəsində acı məğlubiyyəti etiraf edib: "Etiraf edirəm ki, Azərbaycan tərəfi daha müasir, daha güclü silahlarla təchiz olunub. Hətta deyə bilərəm dünyanın ən müasir silahlarından istifadə edirdi. Xüsusən də bu, hava hücumundan müdafiə sistemində daha açıq aşkar hiss olunurdu. Əgər siz məndən soruşsanız ki, Ermənistan niyə bu cür silahlarla təmin olunmayıb mən deyərdim ki, biz iqtisadi cəhətdən o cür səviyyəyə çatmamışıq. Döyüş başladığı ilk günlərdə mən ali baş komandana bildirmişdim ki, bizim ordumuz müasir silahla təchiz olunmuş Azərbaycan Ordusu qarşısında çox tab gətirməyəcək. Müdafiə naziri kimi əlimdən gələni etdim. Əgər döyüşlər bir neçə gün də davam etsəydi biz daha acınacaqlı vəziyyətlə üzləşəcəkdik. İtkilərin sayı ay yarımda olan hesablardan qat-qat daha çox olacaqdı". O, həmçinin qeyd edib ki, ən optimal variant müharibənin dayanması idi. Qarşı tərəf bütün istiqamətlərdə bizi üstələyirdi".



# "İşğalçı Ermənistan rəhbərliyinin təslimçiliyə imza atması faktı artıq özü-özülüyündə bütün gerçəkləri ortaya qoyur"

*SİA Azərbaycan Respublikasi Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyevin müsahibəsini təqdim edir:*

***- Məhərrəm müəllim, Azərbaycan və Rusiya prezidentlərinin, eləcə də Ermənistanın baş nazirinin imzaladıqları atəşkəslə bağlı razılaşma bəyannaməsindən sonra bəzi sosial şəbəkə istifadəçiləri qeyri-ciddi və əsassız fikirlərilə ictimai rəydə çaşqınlıq yaradırlar. Sizin bu məsələ ilə bağlı fikirləriniz necədir?***

- Mən ilk növbədə Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları başda olmaqla bütün Azərbaycan xalqını qazanılan böyük qələbəmiz münasibəti ilə təbrik edirəm. Bu zəfərin əldə edilməsində fədakarlıq göstərən bütün əsgər və zabitlərimizə fəaliyyətlərində uğurlar arzulayır, yaralanmış hərbçilərimizə şəfa, Vətən uğrunda canlarını qurban vermiş şəhidlərimizə və onların ailələrinə, yaxınlarına Allahdan rəhmət diləyirəm. Onların hər biri Azərbaycanımızın fəxrləridir, biz onların və valideynlərinin qarşısında baş əyirik. Şəhidlərimizin xatirələri daim, tarixlər boyu hər bir azərbaycanlının qəlbində əziz olaraq tutulacaq.

Artıq kimsəyə sirr deyil ki, Azərbaycan Ordusu Qarabağın işğaldan azad edilməsi uğrunda şücaətlər göstərdi və düşmənə sarsıdıcı zərbələr endirməklə onu sülhə, işğal edilmiş ərazilərin qaytarılması üzrə razılaşma bəyannaməsini imzalamağa məcbur etdi. İşğalçı Ermənistan rəhbərliyinin təslimçiliyə imza atması faktı artıq özü-özülüyündə bütün gerçəkləri ortaya qoyur və bu kontekstdən çıxış edərək, xüsusilə, qeyd etmək istərdim ki, sentyabrın 27-dən başlayaraq 44 gün davam edən müharibə dövründə bir çox ölkələr əkshücum əməliyyatlarının dayandırılması üçün cənab Prezident İlham Əliyevə telefon zəngləri etdilər, münaqişənin danışıqlar yolu ilə siyasi müstəviyə keçməsini xahiş etdilər. Əlbəttə, Azərbaycan tərəfi bütün hallarda sülhün tərəfdarı olduğunu hər dəfə bəyan edib və son 27-28 ildə ATƏT-in Minsk qrupu çərçivəsində dəfələrlə danışıqlar masasına oturub, müəyyən şərtlərini irəli sürüb, hətta şərti razılaşmalar ətrafında da müzakirələr aparılıb. Lakin Ermənistan tərəfi istər əvvəlki hakimiyyətləri dövründə, istərsə də hazırkı hakimiyyəti vasitəsi ilə sülhə tərəfdar olmadıqlarını fəaliyyətləri ilə göstərdilər.

İyul ayından başlayaraq, dövlət sərhədlərimizdə silahlı təxribatların törədilməsi, üstəlik dinc əhalimizin atəşə məruz qoyulması, eyni zamanda, Ermənistanın hərbi-siyasi rəhbərliyinin daha irəliyə gedərək, əlavə ərazilərimizi də zəbt edəcəkləri kimi bəyanatlar səsləndirmələri artıq onların məqsədlərini açıq-aşkar məlum edirdi. Bu məqsəd özünü sentyabrın 27-də Qarabağ cəbhəsində sübuta yetirdi. Nəticədə düşmənin işğalçılıq addımlarının cavabı çox sərt şəkildə verildi və demək olar ki, hər gün kəndlərimiz, qəsəbələrimiz, şəhərlərimiz işğaldan azad olundu. İşğalçılar böyük itkilər verərək sadəcə silahsursatlarını, hərbi texnikalarını atıb-qaçmağa çalışırdı ki, bu da Ermənistan ictimaiyyətində ciddi təlaşlar doğururdu. Erməni xalqı artıq anlayırdı ki, onların övladları boş yerə başqasına mənsub olan torpaqlarda döyüşür. Bu vəziyyət istər-istəməz düşmən ölkənin hərbi-siyasi dairələrinin vəziyyətlərini daha da ağırlaşdırırdı. O cümlədən, şanlı Silahlı Qüvvələrimizin qeyrət qalamız hesab edilən və milli-mədəniyyət ocağımız kimi dəyərləndirilən Şuşa şəhərini düşmən işğalından azad etməsindən sonra onların hakimiyyətləri Qarabağ cəbhəsində daha ağır xaos yaşayacaqlarının fərqinə varmağa başladılar. Halbuki, cənab Ali Baş Komandan İlham Əliyev dəfələrlə istər xarici mətbuat vasitələrinə verdiyi müsahibələrində, istərsə də xalqa müraciətlərində düşmən tərəfə öz mesajlarını çatdırırdı. İşğal etdikləri bütün torpaqlarımızdan qeyd-şərtsiz çıxmaq və bunun üçün çıxış qrafikini təqdim etmək tələbini irəli sürən dövlət başçımız müharibənin yalnız bu üsulla dayandırılması mümkünlüyünü vurğulayırdı. Nəticədə məğlub və çıxılmaz vəziyyətə düşən Ermənistan rəhbərliyi sülhə məcbur edildi.

Qeyd edim ki, məhz Rusiya və Türkiyə ali rəhbərliklərinin davamlı rabitəsi, onların Azərbaycan Prezidenti ilə də məsləhətləşmələr aparmalarından sonra ədalətli tələb qəbul edildi və göründüyü kimi, artıq rəsmi bəyannamə sənədi Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanıb, qüvvəyə minib.

Söz yox ki, atəşkəsin əldə olunması üçün ən çox fəaliyyət göstərən tərəflərdən biri də Rusiya rəhbərliyi idi və qəbul olunmuş sənədə əsasən düşmən işğal olunmuş əraziləri bəlli olan, ictimiyyətə də elan edilən qrafik əsasında tərk etməlidir. Çünki o da bəlli idi ki, artıq Rusiya münaqişədə neytral tərəf tutdu. Onu da unutmamalıyıq ki, Azərbaycanın Rusiya ilə münasibətləri strateji tərəfdaşlıq münasibətlərinə əsaslanır, iki dövlət arasında səmimi dostluq amili mövduluğunu qoruyub-saxlayır. Eyni zamanda, Rusiya ilə Azərbaycan arasında bir çox regional layihələr ikitərəfli iqtisadi-siyasi münasibətlərdə möhkəm əsaslara söykənir.

Beləliklə, bütün bu kimi məsələlər, etibarlılıq prisnisplәri də nəzərə alınmaqla Rusiyaya məxsus sülhməramlı qüvvələr təmas xəttində fəaliyyət göstərəcəklər, o cümlədən bu fəaliyyətin müddəti də 5 ildir. Yəni 5 ildən sonra münaqişə tərəflərindən biri sülhməramlıların xidmət apardıqları təmas xəttini tərk etməsini istəyərsə, həmin qərar dərhal icra olunacaq. Bu, həmin sənədin tərkib hissəsində yer alan mühüm müddəadır.

Artıq öz doğma yurd-yuvalarından qaçqın düşmüş bütün vətəndaşlarımız azad olunmuş torpaqlarına geri dönəcəklər və həmin ərazilərdə üçrəngli bayrağımız dalğalanacaq, Azərbaycanın qanunları icra ediləcək, milli valyutamız dövriyyəyə buraxılacaq və bu birmənalıdır. Hər kəs bilməlidir ki, artıq Qarabağımıza heç bir status verilmir. Əvvəllər olduğu kimi "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlı ərazi adı yoxdur, tamamilə süquta uğrayıb. Bütöv bir Qarabağ var ki, o da digər rayonlarımız kimi Azərbaycanın tərkibində olan ayrılmaz ərazimizdir. Ona görə də bəzi sosial şəbəkə istifadəçilərinin əsassız, qeyri-dəqiq məlumatlarla, heç bir hərbi-siyasi bilgilərə sahib olmadan, müxətlif yanlış məlumatları ictimailəşdirmələrini doğru hesab etmirəm. Fikrimcə bu kimi addımlar həmin "internet qəhrəmanlarının" Azərbaycan Ordusuna, Şəhidlərinə və bütünlükdə Azərbaycanımıza qarşı hörmətsizliyidir.

***- Cənab general-poklovnik, bir daha Türkiyə amilinə qayıtmaq istərdim. Qardaş ölkənin formalaşdırılan Monitorinq Mərkəzindəki iştirakı hansı nəticələri verəcək?***

- Əlbəttə, Türkiyə ilə Azərbaycan arasındakı sarsılmaz qardaşlıq telləri ən möhkəm təməllərə söykənir və biz bunu əvvəllər də, münaqişənin ən qızğın vaxtında da gördük, bu gün də şahidi olmaqdayıq. Ümumiyyətlə, ölkələrimiz arasındakı hərbi-strateji əməkdaşlıq və o cümlədən, illərdən bəri formalaşan təməlli prinsiplər qardaş ölkənin bizə olan dəstəyini davamlı edir. Yaxın bir neçə gün ərzində Türkiyənin Milli Müdafiə Nazirliyinin və Baş Qərargahının rəhbərləri Ali Baş Komandan cənab İlham Əliyevlə görüşlər keçirdilər. Türkiyənin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan dəfələrlə cənab Prezident İlham Əliyevlə əlaqə saxladı, prosesləri yaxından izləyərək, daim qardaş dövlətin yanında olduğunu vurğuladı. Həmçinin, bugünlərdə Türkiyə Respublikasının Milli Müdafiə Naziri cənab Hulisi Akar Azərbaycanda səfərdə oldu və Monitorinq Mərkəzinin formalaşdırılması istiqamətində əldə edilən qərarlar, qarşıda dayanan planlar dəqiqliklə müzakirə edildi. Bütün bunlar onu göstərir ki, Türkiyə dövləti bu gün də bizim yanımızdadır və qrafikə uyğun şəkildə işğaldan azad ediləcək digər ərazilərimizə nəzarət funksiyasını Rusiya ilə birlikdə həyata keçirəcəkdir.

***- Məhərrəm müəllim, Azərbaycanın qələbə nəticəsində əldə etdiyi daha hansı uğurlar barədə danışa bilərdiniz?***

- Vətən müharibəsindəki şanlı qələbəmizdən sonra əldə etdiyimiz daha bir zəfər faktoruna toxunmaq istərdim. Bilirsiniz ki, Naxçıvan uzun illərdir blokada şəraitində qalmışdı və bu, həmin bölgənin iqtisadi, ticari və s. maraqlarının qarşısını alırdı. Buna baxmayaraq, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsi olaraq inkişaf edirdi, mübarizə aparırdı və naxçıvanlıların mübarizliyi, qətiyyəti sayəsində ölkəmizin ən gözəl diyarlarından birinə çevrilib.

Lakin təsəvvür etsək ki, Naxçıvan blokada şəraitində olmasaydı daha hansı uğurlara imza atardı, bax bu məsələdə deyərdim ki, əldə olunmuş sülh razılaşması qələbəmizin danılmaz qalibiyyət prinsiplərindən biridir. Çünki sənədə əsasən, artıq Azərbaycandan Naxçıvana Ermənistan ərazisi daxil olmaqla nəqliyyat dəhlizi açılır. Bu dəhlizin açılması muxtar respublikanı belə desək, "materik" Azərbaycanla birləşdirir. Məhz bu uğur yaxın gələcəkdə bütöv bir strateji əhəmiyyəti əhatə edəcək ki, bundan da əlbəttə ki, Azərbaycan xalqı yararlanacaq. Bir sözlə, qeyd etmək istərdim ki, sülh, yaxud atəşkəs sazişi bütün tərəflərdən ölkəmizin, xalqımızın səmərəsinə hesablanmış müddəalardan ibarətdir. Düşünürəm ki, qısa müddət ərzində Azərbaycan dövləti işğaldan azad olunmuş bölgələrimizin inkişafı istiqamətində kifayət qədər nəhəng layihələrin icrasına başlayacaq, kommunikasiya və s. imkanlar genişləndiriləcək.

***- Son olaraq, sonrakı proseslərdə vətənpərvərlik ruhunun təbliğini necə görürsünüz?***

- Zəfər salnaməsi, işğaldan azad olunmuş ərazilərdə müzəffər Ordumuzun qəhrəmanlıq izləri gələcək nəsillərimiz üçün and yeri olacaq. Həmçinin həmin əraziləri ziyarət edərkən Silahlı Qüvvələrimizin şücaətini sübut edən reallıqlar, elementlər orada qalacaq və bu gün qələbəmizin canlı şahidləri olan uşaq və yeniyetmələr, eləcə də bütün yaş dövrlərini əhatə edən insanlarımız döyüşlərin baş verdiyi əraziləri öz gözləri ilə görüb, oraları açıq muzey kimi seyr edəcəklər. Bax, budur gələcəyə vətənpərvərlik ideyalarını aşılamaq siyasəti.

Bütün bunlar isə, qazanılan zəfərimizin başlıca məqsədləridir və Azərbaycan xalqı, Azərbaycan əsgər və zabiti Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə bu şanlı qələbəni qazandı. Sözümü isə cənab Prezidentimizin təqribən bir il əvvəl bəyan etdiyi və hər kəsin dillər əzbəri olmuş "Qarabağ Azərbaycandır!" nidası ilə yekunlaşdırıram.

## Aleksey Makarin: "İlham Əliyev qalib və Milli Qəhrəmandır"



Rusiyalı tanınmış politoloq, tarixçi və jurnalist, Siyasi Texnologiyalar Mərkəzinin direktor müavini Aleksey Makarkin atəşkəsin əldə edilməsini təsdiq edən bəyannamə sənədi ilə bağlı fikirlərini bildirib. Onun sözlərinə görə, bu sənədlə Ermənistan Qarabağı tamamilə itirib. Onların yeganə təsəllisi yerli ermənilərin Qarabağda yaşamaq şansı və dəhliz vasitəsi ilə Ermənistana getmək imkanıdır. SİA xəbər verir ki, rusiyalı politoloqun sözlərinə görə, Prezident İlham Əliyev qalib və milli qəhrəmandır.

Makarkin Türkiyə sülhməramlıların qərargahında yer almasını bu ölkənin Cənubi Qafqazdakı təsir gücünə malik olması ilə izah edib. O, eyni zamanda, Rusiyanı ermənilərin varlığı üçün yeganə qarant olduğunu da deyib. "Ermənistanın sülhə getməkdən başqa alternativi yox idi", deyən Makarkin bunu belə izah edib: "Suriyanın təcrübəsində də göründü ki, sən könüllü dəstələrlə nizamsız birləşmələrə qarşı döyüşə bilərsən, amma raket və pilotsuz təyyarələrə malik müasir ordu önündə gücsüzsən".

Politoloq Şuşanın alınmasının da müharibədə həlledici olduğunu bildirib və qeyd edib ki, Azərbaycan 5 il başa çatandan sonra birtərəfli qaydada sülhməramlıların fəaliyyətindən imtina edə bilər və müqavilədə ona bu hüququ verən bənd var. Hansı ki, Dnestryanı, Abxaziya və Cənubi Osetiya ilə bağlı imzalanan müqavilələrdə belə bir bənd mövcud olmayıb.

***Rövşən RƏSULOV***

## Artur Vanetsyan: "Ermənistan tarixinin ən biyabırçı və ağrılı səhifələri yazılır"



Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin (MTX) keçmiş rəhbəri, "Vətən" partiyasının sədri Artur Vanetsyan: "Bu, üçüncü respublikamızın tarixinin ən biyabırçı və ağrılı səhifələrdən biridir. SİA bunu Ermənistan KİV-lərinə istinadən xəbər verir.

Vanetsyan bildirib ki, bütün bunlardan yeganə məsul və günahkar olanlar Ermənistanda hazırda iqtidarda olan bir qrup xəyanətkardır: "Paşinyan xroniki yalançıdır, hər zaman yalan danışır".

# Dünya mətbuatı Azərbaycanın tarixi qələbəsindən yazır!

## “El Mundo”: Ermənistan Azərbaycanla “ağrılı” sülh imzaladı


الجزيرة الآن
الرئيسية المملكة العالم الانتخابات الامريكية تقارير الرياضة المنوعات المرأة المجتمع الوسائط النسخة الورقية PDF
2020-11-10
أرمينيا وأذربيجان تتفقان على إنهاء القتال
وقعت أرمينيا وأذربيجان برعاية روسيا اتفاقاً لوقف إطلاق النار في ناغورني قره باغ يكرس الانتصارات العسكرية التي حققتها قوات باكو في الإقليم بعد ستة أسابيع من المعارك الدامية.
وسينتشر نحو ألفي جندي روسي في الساعات أو الأيام المقبلة في هذه المنطقة التي تسكنها غالبية من الأرمن والتي انفصلت عن أذربيجان بعد حرب في التسعينات.


***İspaniyanın geniş oxuyucu kütləsinə malik “El Mundo” qəzetində Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən noyabrın 9-da imzalanan birgə bəyanatın müddəaları, habelə sənədin Azərbaycan və Ermənistan xalqları tərəfindən necə qarşılanması barədə məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Prezident İlham Əliyevin Rusiya Prezidenti ilə videokonfrans formatında keçirdiyi görüşdə səsləndirdiyi fikirlərə istinad olunaraq, üçtərəfli bəyanatın imzalanmasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində əhəmiyyətli rol oynayacağı qeyd olunur.***

Eyni zamanda, Prezident İlham Əliyevin noyabrın 10-da Azərbaycan xalqına müraciətində səsləndirdiyi fikirlərə toxunularaq, atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzdə Rusiya ilə yanaşı, Türkiyə hərbçilərinin də fəaliyyət göstərəcəyi diqqətə çatdırılır.

Məqalədə Ermənistanın baş naziri Nikol Paşinyanın sözləri də yer alıb: “Bəyanatın mətni şəxsən mənim üçün və xalqımız üçün çox ağrılıdır. Bu qərar hərbi vəziyyətin dərindən təhlili və sahənin ən yaxşı mütəxəssisləri ilə aparılan müzakirələr əsasında qəbul edilib”.

Məqalədə Azərbaycan üçün böyük tarixi və strateji əhəmiyyətə malik Şuşa şəhərinin noyabrın 8-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olunması xüsusi vurğulanır. Həmçinin birgə bəyanatın Ermənistanda kəskin etirazla qarşılandığı, ölkədə iğtişaşların başladığı, nümayişçilərin hökumət və parlament binalarını ələ keçirdiyi, baş nazir N.Paşinyanın istefasının tələb olunduğu diqqətə çatdırılır.

### “The New York Times”: Hərbi məğlubiyyətlə qarşılaşan Ermənistan Dağlıq Qarabağ müharibəsi üzrə sazişə razılaşdı

ABŞ-da çıxan “The New York Times” qəzetində Azərbaycanın Ermənistan üzərində qələbəyə və atəşkəsə həsr olunmuş məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Rusiyanın vasitəçiliyi ilə bağlanan sazişdə Azərbaycanın Ermənistan ilə onilliklər boyu danışıqlarda əldə etməyə çalışdığı xeyli güzəştlərə nail olduğu bildirilir.

Bazar ertəsi Ermənistanın baş naziri, döyüş meydanında faktiki məğlubiyyətini etiraf edən Nikol Paşinyan işğal edilmiş ərazilərin qaytarılmasını və digər tələbləri qəbul edərək Dağlıq Qarabağda müharibənin dayandırılması barədə saziş imzalayıb. Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və baş nazir Nikol Paşinyan tərəfindən imzalanan saziş Azərbaycanın Dağlıq Qarabağ regionundan erməni işğalçı qüvvələrinin çıxarılmasını nəzərdə tutur. Məqalədə deyilir ki, atəşkəs barədə Rusiya, Fransa və ABŞ ilə bundan əvvəl bağlanmış üç saziş uğurla nəticələnmədi. Budəfəki saziş isə Cənubi Qafqazda təhlükəsizlik xəritəsinin daha daimi və radikal şəkildə yenidən çəkilməsini nəzərdə tutur. Nizamlanma Azərbaycanın vətən müharibəsində onu dəstəkləyən Türkiyənin regionda rolunu möhkəmlətdi.

Müəllif yazır ki, azərbaycanlılar üçün münaqişənin nizamlanması 1994-cü ildə başa çatan birinci Qarabağ müharibəsi zamanı öz evlərini itirən yüz minlərlə məcburi köçkünün doğma ocaqlarına qayıtmasına şərait yaradır. Sazişin imzalanması elan olunduqdan bir neçə saat sonra Yerevanda Paşinyan rejiminə qarşı etiraz aksiyaları baş qaldırdı. Kütlə hökumətin binasına daxil olaraq, baş nazirin kabinetinin qapısı üzərində Paşinyanın adı yazılan lövhəciyi qoparıb atdı.


MUNDO
Armenia firma una paz dolorosa con Azerbaiyán
Nagorno Karabaj pierde territorio, mientras Rusia y Turquía vigilan el alto el fuego
Armenia al menos conserva la carretera que la conecta con la República de Karabaj
El acuerdo incluye el intercambio de todos los prisioneros de guerra y de cadáveres

Məqalədə qeyd olunur ki, Ermənistan təqribən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən və məcburi köçkünlərin doğma ev-eşiklərinə qayıtmalarını nəzərdə tutan qətnamələrinə məhəl qoymayıb.

### İspaniya portalı Azərbaycan Ordusunun Qələbəsi barədə geniş material yayıb

İspaniyanın geniş oxucu kütləsinə malik “El Confidencial” elektron portalı Azərbaycanın Qarabağda çaldığı zəfər barədə məqalə yerləşdirilib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 10-da imzaladığı birgə bəyanatın müddəaları, habelə sözügedən bəyanatın iştirakçı ölkələrin xalqları tərəfindən necə qarşılanması əksini tapıb.

Yazıda Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarında 40 gündən çox davam edən hərbi əməliyyatın Ordumuzun qələbəsi ilə yekunlaşdığı, məğlub olmuş Ermənistanın baş naziri Nikol Paşinyanın Yerevanda “satqın” kimi qarşılandığı qeyd edilir.

Azərbaycanın tarixi Şuşa şəhərinin işğaldan azad olunmasının Azərbaycan Silahlı Qüvvələrinin qələbəsinə əhəmiyyətli töhfə verdiyi vurğulanaraq, Ordumuzun işğal altındakı ərazilərimizi qısa müddət ərzində azad etdiyi diqqətə çatdırılır.

Noyabrın 10-da imzalanan birgə bəyanatın Azərbaycanın Qələbəsini bir daha təsdiq etdiyi, sözügedən sənədin Ermənistanda böyük etirazlarla qarşılandığı qeyd olunur.

Bildirilir ki, Ermənistan silahlı qüvvələri dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonlarından çıxmalıdır. Məqalədə Ermənistanda iğtişaşların başladığı, etirazçıların hökumət və parlament binalarını ələ keçirdiyi, baş nazir N.Paşinyanın istefasının tələb olunduğu diqqətə çatdırılır.

### Rumıniya KİV-ləri Azərbaycan Ordusunun Qələbəsi barədə yazır

Rumıniyanın aparıcı KİV-ləri, o cümlədən AGERPRES milli xəbər agentliyi, “MediaFax” özəl informasiya agentliyi, “DİGİ24” televiziya







kanalı və digər media qurumları Azərbaycan Ordusunun zəfəri barədə məqalələr dərc ediblər. AZƏRTAC xəbər verir ki, yazılarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində müharibənin dayandırılması ilə əlaqədar birgə bəyanatı qeyd olunur.

Bildirilir ki, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

Vurğulanır ki, Ermənistan bu il noyabrın 15-dək Kəlbəcər rayonunu, noyabrın 20-dək Ağdam rayonunu, dekabrın 1-dək isə Laçın rayonunu Azərbaycana qaytaracaq. Yazılarda qeyd olunur ki, Dağlıq Qarabağla Ermənistan arasında əlaqə yaratmaq üçün 5 kilometr enində dəhliz olacaq və dəhlizə Rusiya sülhməramlı kontingenti nəzarət edəcək. Türkiyə-Rusiya birgə atəşkəsə nəzarət mərkəzinin fəaliyyəti ilə bağlı da məlumat verilib.




## Qazaxıstan KİV-də Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı birgə bəyanatından bəhs olunub

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Dağlıq Qarabağda davam edən döyüşlərin dayandırılması barədə imzaladığı birgə bəyanat Qazaxıstan KİV-lərinin də diqqət mərkəzindədir. AZƏRTAC xəbər verir ki, "tengrinews.kz", "inbusiness.kz", "kaztag.kz", "azattyqruhy.kz" saytlarının və digər kütləvi informasiya vasitələrinin yaydığı məlumatlarda Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 9-da imzaladığı birgə bəyanatı haqqında məqalə dərc edilib.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Dağlıq Qarabağda hərbi əməliyyatların dayandırılması ilə bağlı xalqa müraciət etməsi də qeyd olunub. Eyni zamanda, bildirilir ki, Dağlıq Qarabağda Rusiya sülhməramlıları yerləşdiriləcək.

Materiallarda Azərbaycan Prezidentinin çıxışından sitat da gətirilib: "Qarabağ münaqişəsi bizim regionda, Avrasiya məkanında ən uzun münaqişələrdən biridir və bu gün sona çatmaqda olan münaqişə tarixi hadisədir, ilk növbədə, Azərbaycan xalqı üçün çoxillik işğaldan azad olunur". Həmçinin bu bəyanatın ardınca Ermənistanda iğtişaşların başlaması, etirazçıların hökumət və parlament binalarını ələ keçirməsi, baş nazir N.Paşinyanın istefasının tələb olunduğu diqqətə çatdırılır.

## Azərbaycan xalqının Qələbə sevinci ərəb KİV-lərində

Azərbaycan xalqının Qələbə sevinci, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti ərəb mətbuatının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyə", Qətərin "Aljazeera", İordaniyanın "Almamlaka", Misirin "MBC Masr", "Extranews" və "Nilenews", "Skynews Arabic", "İ24 Arabic" televiziya kanallarının efirində Azərbaycan xalqının Qələbə sevinci, dövlətimizin başçısının xalqa müraciəti haqqında geniş reportajlar yayımlanıb. Ərəb televiziya kanalları, həmçinin Ermənistanın məğlubiyyəti, ermənilərin Yerevanda Paşinyanın kabinetinə hücum etməsi barədə də süjetlər veriblər.

Ərəb ölkələrinin informasiya agentlikləri də Azərbaycan xalqının tarixi Qələbəsi barədə xəbərlər yayıb. Misirin MENA və "Asiaelyoum", Tunisin TAP xəbər agentliklərinin saytlarında Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətini və ermənilərin Yerevanda iğtişaşlar törətməsi barədə yazılıb.

Tarixi Qələbəmiz haqqında materiallar ərəb ölkələrinin nüfuzlu qəzetlərində də dərc edilib. "Arabnews", "Əl Əhram", "Jordantimes", "Əl Cəzirə" nəşrlərinin səhifələrində Müzəffər Ali Baş Komandanımızın xalq müraciəti və ermənilərin təslim olması barədə yazılar dərc edilib.




## İran mətbuatı Azərbaycanın Qarabağdakı Qələbəsini geniş işıqlandırıb

İran mətbuatı Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə bəyanat barədə xəbərlərə geniş yer ayırıb. AZƏRTAC xəbər verir ki, İranın İSNA, İRNA, Mehr, İLNA, "Tehran Times", "Tasnim" saytları Azərbaycanın Dağlıq Qarabağ uğrunda apardığı mübarizədə qalib gələrək Ermənistanı sülhə məcbur etdiyini bildiriblər.

İran mətbuatı Ermənistanın baş naziri Nikol Paşinyanın sosial şəbəkədə paylaşdığı statusa toxunub. Materiallarda diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev siyasi iradə nümayiş etdirərək işğal altındakı torpaqları azad etdi. Materiallarda Prezident İlham Əliyevin xalqa müraciətindən sitat da gətirilib: "Paşinyan bəyanatı öz istəyi ilə deyil, Azərbaycanın dəmir yumruğu sayəsində imzaladı".

İran mediası Ermənistanda baş verən hadisələrə də toxunub. Qeyd olunub ki, Ermənistanda xaos hökm sürür. Şəhid anaları və yaxınları parlamentə hücum edərək qanunverici orqanın binasını dağıdıblar. Ermənistanda baş nazir N.Paşinyanın istefası tələb olunur.

## İƏT-in Milli Xəbər Agentlikləri Birliyi və Misir KİV-ləri Azərbaycanın Qələbəsinə həsr olunan materiallar yayıb

İslam Əməkdaşlıq Təşkilatı Milli Xəbər Agentlikləri Birliyi (UNA) və Misir KİV-ləri Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətini geniş işıqlandırıb. UNA-nın AZƏRTAC-a istinadla yaydığı xəbərdə Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri arasında müharibənin dayandırılmasına dair imzalanmış bəyanat və dövlətimizin başçısının xalqa müraciəti yer alıb.

Misirin "Eghad" portalı və "Asiaelyoum" informasiya agentliyi də Prezident İlham Əliyevin xalqa müraciəti haqqında xəbərlər yayıb. "Prezident İlham Əliyev müharibənin Qələbə ilə başa çatdığını bəyan etdi" sərlövhəli xəbərdə qeyd olunur ki, Azərbaycanın dövlət başçısı şanlı Qələbənin döyüş meydanında qazanıldığını, 300-ə yaxın yaşayış məntəqəsinin işğaldan azad edildiyini vurğulayıb. Xəbərdə dövlətimizin başçısının bu fikirləri yer alıb: "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

# 12 noyabr - Konstitusiya Günüdür

***Bu gün Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 25 il ötür. Müstəqil Azərbaycanın ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib. Dövlətin Əsas Qanunu 1995-ci il noyabrın 27-də qüvvəyə minib. 1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın Konstitusiya quruluşunun tarixi SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul olunmuşdu. 1978-ci ilin aprelin 21-də qəbul edilmiş son Konstitusiya da, əvvəlki konstitusiyalar kimi, SSRİ Konstitusiyasına uyğunlaşdırılmışdı.***




Dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə ölkədə bütün sahələrdə yaşanan xaosdan, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etmək üçün xalqın hakimiyyətə dəvət etdiyi ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə, cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratdı. Ulu öndər Heydər Əliyev bu barədə danışarkən deyirdi: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”.

1995-ci ilin mayında ulu öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası formalaşdırıldı. Komissiyanın hazırladığı bitkin, əhatəli Konstitusiya layihəsi 1995-ci ilin oktyabrında ümumxalq müzakirəsinə verildi. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak etdi və onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi. Əsas Qanun noyabrın 27-də hüquqi qüvvəyə mindi.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi.

Təsadüfi deyil ki, Konstitusiyamızın müəllifi ulu öndər Heydər Əliyev Əsas Qanunun ən mükəmməl formada hazırlanmasını zəruri sayaraq bildirirdi: “Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir”.

Məhz bunun nəticəsində keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi. Konstitusiya qəbul edilən gün - noyabrın 12-də respublika parlamentinə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər də keçirildi. İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyillərinə istinad olunmuş, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın - konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulmuş, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyənləşdirilmişdi. Bu müddəaya əsasən, 1997-ci il oktyabrın 21-də “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci il iyulun 14-də Milli Məclisin Qərarı ilə Konstitusiya Məhkəməsinin 7 hakimi təyin olundu. İyulun 18-də isə Ulu Öndər Heydər Əliyev Konstitusiya Məhkəməsinin müstəqilliyinin və hakimlərinin hüquqi statusunun təmin edilməsi barədə Fərman imzaladı. Bununla da Konstitusiya Məhkəməsi rəsmən fəaliyyətə başladı. Doqquz hakimdən ibarət bu qurum qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqla, qanunlara şərh verməklə, prezident və parlament seçkilərinin nəticələrini təsdiqləməklə, hətta vətəndaşların birbaşa müraciəti əsasında müvafiq qərarlar qəbul etməklə bütövlükdə, Konstitusiyanın aliliyini qoruyur.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyillərinə istinad olunmuş, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın - konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulmuş, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyənləşdirilmişdi. Bu müddəaya əsasən, 1997-ci il oktyabrın 21-də “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci il iyulun 14-də Milli Məclisin Qərarı ilə Konstitusiya Məhkəməsinin 7 hakimi təyin olundu. İyulun 18-də isə Ulu Öndər Heydər Əliyev Konstitusiya Məhkəməsinin müstəqilliyinin və hakimlərinin hüquqi statusunun təmin edilməsi barədə Fərman imzaladı. Bununla da Konstitusiya Məhkəməsi rəsmən fəaliyyətə başladı. Doqquz hakimdən ibarət bu qurum qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqla, qanunlara şərh verməklə, prezident və parlament seçkilərinin nəticələrini təsdiqləməklə, hətta vətəndaşların birbaşa müraciəti əsasında müvafiq qərarlar qəbul etməklə bütövlükdə, Konstitusiyanın aliliyini qoruyur.

Ötən 23 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər nəticəsində Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

# Azərbaycan tarixi ədaləti bərpa etdi

## 30 ilin nisgilinə 44 gündə son qoyuldu

***Azərbaycan tarixi qələbəsi ilə sevincli günlərini yaşayır. Hər bir tarixi gün keçilən yolun təhlilini daim bir zərurətə çevirir. 30 ilin nisgilinə 44 gündə son qoymaq heç də asanlıqla başa gəlmədi. Dövlətimizin qətiyyəti, xalqımızın iradəsi, ordumuzun gücü, birliyimiz, həmrəyliyimiz sayəsində əldə olunan bu tarixi qələbənin sevinci fonunda 28 ildə Azərbaycanın hansı mərhələlərdən keçdiyinə nəzər salaq. Bu gün böyük fəxrlə qeyd edirik ki, Azərbaycan həm döyüş meydanının, həm də diplomatik müstəvidə aparılan mübarizənin qalibi kimi dünyanın diqqətindədir.***



*Vüqar Rəhimzadə,*
*YAP Siyasi Şurasının üzvü,*
*“İki sahil” qəzetinin baş*
*redaktoru, siyasi elmlər doktoru*

Bu uğurlara geniş imkanlar açan dövlətimizin müstəqil siyasəti, hər addımda dövlətin, xalqın maraqlarının öndə saxlanılması, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dəyişməz mövqeyin ən yüksək tribunalardan bəyan edilməsi, heç kimin bizimlə diktə dili ilə danışmağa haqqı olmadığını bəyan edərək dünyanın ikili standartlarının beynəlxalq münasibətlərdə hüquq probleminin yaşanmasına yol açdığının əsaslı şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasının, ən əsası işğalçı Ermənistana sərsəm bəyanatlarına, təxribatlarına son qoymaq çağırışlarının sonda bu qələbə ilə nəticələnəcəyinə heç kimdə şübhə yox idi. Dövlətimizin başçısı, Silahlı Qüvvələrimizin Ali baş Komandanı İlham Əliyev tarixi qələbə müjdəsini xalqa çatdırarkən bir daha bəyan etmişdir ki, 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü topladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik: “Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq! Heç bir danışıqlar bizi maraqlandırmır... Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi... Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!”.

### Heç kim Azərbaycan xalqının səbri ilə oynaya bilməz

Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrləri fəaliyyətə başladıqları 1992-ci ildən bugünədək yalnız nəticəsiz səfərlərlə missiyalarını bitmiş hesab etdilər. Dövlətimizin başçısı İlham Əliyevin təbirincə desək, nə qədər belə mənasız, imitasiya naminə danışıqlar aparmaq olar? Xalqın səbri tükənməz deyil.

Ulu öndər Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini şərtləndirən amillərdən bəhs edərkən daim bildirirdi ki, bu məsələdə dövlətin qətiyyəti, xalqın iradəsi, beynəlxalq dəstək əsasdır. Dövlətimizin qətiyyətli mövqeyi hər kəsə məlumdur. Xalqımız daim Ali Baş Komandanın hücum əmrini gözləyib. Bir qarış torpağımızı belə düşmənə verməyəcəyimiz nəinki dövlətimizin başçısının bəyanatlarında, eyni zamanda, xalqımızın Ali Baş Komandana ünvanlanan minnətdarlıq məktublarında da öz əksini tapırdı. Dövlətimiz, xalqımız bir il deyil, iki il deyil, 30 il sülh danışıqlarını gözlədi. Amma hər dəfə Ermənistana dəstək gördükdə sərt münasibətini bildirsə də, bu dəstəyə müxtəlif adlar altında haqq qazandırdılar. “Vasitəçi neytral olmalıdır” çağırışı rəsmi Bakının bütün bəyanatlarının əsasında dayanırdı. Əgər işğalçı adı ilə çağırılmırsa, bu zaman vasitəçilik missiyasını yerinə yetirməyə ehtiyac var idimi? O da məlumdur ki, vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrləri - Rusiya, ABŞ və Fransa, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçüdür. Dünyada cərəyan edən hər bir prosesə təsir etmək imkanına malik olan bu dövlətlər doğrudanmı işğalçı Ermənistana bu illər ərzində “gözün üstə qaşın var” demək imkanında deyildilər? Azərbaycan Ordusunun sentyabrın 27-dən əks-hücum əməliyyatlarını davam etdirərək göstərdiyi rəşadət bir çox məsələlərə aydınlıq gətirdi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin qəbulunda iştirak edən həmsədr dövlətlər qurumun bu günlərdə keçirilən iclasında bu qətnamələrin öz əksini tapdığı bəyanatı qəbul etməməkdə israrlı olduqlarını nümayiş etdirdilər. Qoşulmama Hərəkatının üzvlərinin təkidi nəticəsində həmin bəyanat qəbul olundu. Belə ikili standartlar nümayiş etdirən dövlətlərin vasitəçiliyi əsasında münaqişənin sülh yolu ilə həllini gözləməyə dəyərdimi? Azərbaycan Ordusu son 44 gündə bu suala da cavab verdi.

### “Münaqişənin həllinin hərb yolu yoxdur” fikrinin yanlış olduğu təsdiqləndi

Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrləri, eyni zamanda, nüfuzlu beynəlxalq təşkilatlar problemin hərb yolunun olmadığını qeyd edirdilər. Azərbaycanı yalanları ilə sülh danışıqlarının nəticə verəcəyinə inandırmağa çalışan dövlətlər, qurumlar da bu gün həmin düşüncələrinin nə qədər yanlış olduğunun fərqindədirlər. Azərbaycan Ordusu münaqişənin hərb yolunun mövcudluğunu nümayiş etdirməklə yanaşı, bu gün işğal altında olan torpaqlarımızı azad etmək iqtidarında olduğunu da göstərdi. Məhz həmin yanlış düşüncəyə əsaslanaraq işğalçı Ermənistan bu ilin iyul, avqust və sentyabr aylarında hərbi təxribatlara cəhdlər göstərdi. Onun bu cəhdlərinin arxasında yeni ərazilər uğrunda müharibə planları dayanırdı ki, bunu dövlətimizin başçısı İlham Əliyev BMT Baş Assambleyasının 75-ci yubiley sessiyasında bəyan etmişdi. O zaman Ermənistana havadarlıq edən dövlətlər buna seyrçi mövqedən dayanaraq susmağa üstünlük verdilər. Amma sentyabrın 27-də Ermənistan silahlı qüvvələri müxtəlif istiqamətlərdən hücuma keçdikdə Azərbaycan Ordusu bunun qarşısını əks-hücum əməliyyatları ilə almağa səy göstərərək böyük qəhrəmanlıqlar göstərəndə həm Ermənistan hakimiyyəti, həm də onlara dəstək verən dövlətlər məyus olduqlarını gizlədə bilmədilər. Çünki Ermənistanın baş naziri planlarını həyata keçirmək üçün hərbi təxribata başlayanda belə bir müqavimət görəcəyini düşünmürdü. Azərbaycan Ordusu Ermənistanı çökdürdü, hərbi texnikalarını məhv etdi, qənimət kimi götürdü. Bir sözlə, “yenilməz erməni ordusu” mifi darmadağın edildi. Dövlətimizin başçısı İlham Əliyev xarici mətbuata bütün müsahibələrində, eyni zamanda, xalqa müraciətlərində bu suala cavab axtardı: Yoxsul ölkənin bu qədər silahı hardandır? Ona kim bu qədər silah verir? Cənab İlham Əliyev həmin dövlətlərə bu müraciəti ünvanladı ki, siz əgər Ermənistana iqtisadi, siyasi, diplomatik, hərbi dəstəyi dayandırsanız, o, irəli sürülən şərtləri qəbul edərək danışıqlar masası ətrafında oturacaq. Dövlətimizin başçısı İlham Əliyevin bu fikirləri həmin ünvanlara ciddi mesaj oldu. Ölkə Prezidenti noyabrın 10-da xalqa müraciətində də bu məqama xüsusi diqqət yönəldərək bildirdi ki, bu məsələ ilə məşğul olan siyasətçilərin hamısı deyirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən nə deyirdim? Deyirdim ki, var! Məni tənqid edirdilər ki, İlham Əliyev nə danışır? Yoxdur hərbi həlli. Dedim yaxşı yoxdursa, onda bunu sülh yolu ilə həll edin: “Sizin əlinizdə bu imkanlar var. Siz böyük dövlətlərsiniz, böyük nüfuzunuz var, böyük imkanlarınız var. Nədir ki, sizin qabağınızda Ermənistan, nədir ki, ona təsir edə bilmirsiniz? Bəlkə təsir etmək istəmirsiniz? Yox, deyirdilər ki, olmaz müharibə aparmaq, sülh yolu ilə. Sülh yolu ilə 1 il, 2 il, daha 30 il sülh yolu ilə? Bizim başımızı nə qədər aldatmaq olar? Amma biz sübut etdik ki hərbi həlli var. Və mən demişdim ki, mən istəyirəm və Paşinyan, deyirəm sənə, bəyanat ver, öhdəlik götür, qrafik ver, cədvəl ver. Müharibənin ilk günündən mən bunu deyirdim. Hər kəs də bunu görə bilər. Müsahibələrimdə, xalqa müraciətlərimdə açıq demişəm, qrafik ver, cədvəl ver, rədd ol, çıx get, mən dayanıram. Yoxsa oradan deyirlər dayanın, buradan deyirlər dayanın”.

Azərbaycan dövləti daim bu suallara cavab axtarıb: Bizim torpaqlarımızı işğal edəndə niyə bunlara “dayanın!” deyən olmadı? Bizim torpağımızı 30 il əsarət altında saxlayan Ermənistana nə üçün “buradan çıx get!” deyən olmadı! Biz indi öz gücümüzə güvənərək bu torpaqları şəhid verəverə, qan tökə-tökə azad edirik, bizə “dayanın” deyirsən, ona de ki, çıx. Amma demir.

Ermənistan başına 30 ilə yaxın müddətdə çəkilən sıığalın acı nəticələrini yaşayır. Ermənistanın baş naziri Nikol Paşinyan hakimiyyətə gələndə yeni ideyalarla çıxış edərək belə bir rəy yaratmışdı ki, münaqişənin həllində müsbət irəliləyişə nail olmaq mümkün olacaq.

Amma günlər keçdikcə sərsəm bəyanatları ilə diqqətdə oldu. Gah danışıqların formatının dəyişdirilib qondarma “Dağlıq Qarabağ respublikası”nın prosesdə tərəf kimi iştirakının vacibliyini bildirdi, gah da “Qarabağ Ermənistandır və nöqtə” deyib münaqişənin sülh danışıqları yolu ilə həllinin mümkünsüzlüyünə işarə etdi. Azərbaycan Ordusu Nikol Paşinyanın bu “işarəsinin” nə dərəcədə sərsəm, xülya olduğunu döyüş meydanında sübut etdi. Aciz duruma düşən Paşinyanın üz tutmadığı, yalvarmadığı dövlət, beynəlxalq təşkilat qalmadı. Dağlıq Qarabağın müstəqilliyinin tanınması üçün yalvarışlar etdi. Tarixi bilməyən, hər zaman dövlətimizin başçısı İlham Əliyevdən tarix və hüquq dərsi alan Ermənistanın baş naziri 44 gündə Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu etiraf etdi. Bir daha dərk etdi ki, yalanla həqiqət üzərində qələbə çalmaq mümkünsüzdür.

### Biz bu qələbəni döyüş meydanında qazandıq

Ötən 44 gündə 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərləri, 4 qəsəbə döyüş meydanında işğaldan azad edildi. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, bu qələbələr düşməni məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonlarını siyasi yollarla qaytarsın. “Amma burada Ermənistan tərəfinin xoş niyyətini axtarmaq yersizdir. Onlarda xoş niyyət deyilən anlayış bütövlükdə yoxdur. Sadəcə olaraq, məcbur olub” söyləyən ölkə Prezidenti bildirir ki, çünki bilirdi ki, bu sənədə imza atmasa, özümüz alacağıq bu torpaqları. Dövlətimizn başçısı, Ali Baş Komandan daim bəyan edirdi ki, biz qan tökmək istəmirik, müharibəni dayandırmalıyıq. Bunun üçün Azərbaycan tərəfinin şərtlərini qəbul edib torpaqlarımızdan rədd olsunlar.

Belə də oldu. Azərbaycan həm döyüş, həm də diplomtik müstəvidə qalib oldu, işğalçı dövlətə yerini göstərdi. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı bunun təsdiqidir. Bu bəyanat Azərbaycanın tarixi qələbəsidir.

### Azərbaycan xalqı məğrur xalqdır

İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının birliyini bir daha nümayiş etdirdi. Siyasi əqidəsindən, mənsubiyyətindən, mövqeyindən asılı olmayaraq bütün vətəndaşlar yumruq kimi birləşdi. Bütün bölgələrdən ordumuza dəstək gəldi. Azərbaycan xalqı hər gün dövlətimizin başçısı İlham Əliyevdən qələbə xəbərini gözlədi. Hər bir zəfər sevinci böyük coşqu ilə qeyd olundu. Ölkəmizdə yaşayan bütün millətlərin, dini konfessiyaların nümayəndələri birlik nümayiş etdirdilər, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədilər. Bu, bizim böyük sərvətimiz, dəyərimizdir.

*Ardı Səh. 12*

# Azərbaycan tarixi ədaləti bərpa etdi

## 30 ilin nisgilinə 44 gündə son qoyuldu

**Əvvəli-Səh-11**

"Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur" söyləyən cənab İlham Əliyev bildirdi ki, çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır: "Amma bizim üstünlüyümüz bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir".

Azərbaycan ədaləti, haqqı, öz ərazi bütövlüyünü bərpa edir. Müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük, yenilməz, dəmir iradəli, müzəffər xalq olduğunu göstərdi. Gözün aydın olsun, Azərbaycan! Gözün aydın olsun, Azərbaycan xalqı!

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva daim xalqa müraciətlərində "Qoy Azərbaycanın müstəqilliyi əbədi olsun!" söyləyərək bildirir ki, bu günlərdə bütün dünya ictimaiyyəti Azərbaycan xalqının yenilməz iradəsinin, qətiyyətinin, əzminin, birlik və həmrəyliyinin, Vətənə sadiqliyinin şahididir. Əminəm ki, xalqımızın məhz bu xüsusiyyətləri bizə qarşımızda dayanan bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, o cümlədən müstəqilliyimizi qoruyub saxlamağa hər zaman kömək edəcəkdir. Uca Tanrı xalqımızı, Vətənimizi qorusun! Mehriban xanım Əliyeva, eyni zamanda, Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə xalqımıza təbrikində bu arzunu ifadə etmişdir ki, qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq-Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır!

### "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq qələbəmizin rəmzinə çevrildi

Dövlətimizin başçısı İlham Əliyev ötən il Rusiyanın Soçi şəhərində siyasi dairələrdə məşhur "beyin mərkəzlərindən" biri hesab edilən "Valday" Diskussiya Klubunun XVI illik toplantısında Ermənistan baş nazirinin "Qarabağ Azərbaycandır və nöqtə" bəyanatının yalan olduğunu bəyan edərək bildirmişdir: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi."

Cənab İlham Əliyev xalqa müraciətində də bu məqamı xüsusi qeyd etmişdir ki, fəxr edirəm ki, mənim bir il bundan əvvəl dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

Göründüyü kimi, Azərbaycana qələbə sevincini yaşadan dövlətimizin başçısı İlham Əliyevin qətiyyəti, xalqımızın sarsılmaz iradəsi, ordumuzun yenilməz rəşadəti, birliyimiz, həmrəylimizdir. Ən əsası, şəhidlərimiz bu möhtəşəm Qələbə tarixini öz qanları ilə yazdılar. İşğal altında olan torpaqlarımız, Qarabağın tacı olan Şuşa özünün tarixi sahibinə qayıtdı. Dövlətimizin başçısı İlham Əliyev hər çıxışında şəhidlərimizin qanının yerdə qalmayacağını bildirirdi. Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə soyqırımları zamanı həlak olan günahsız insanların ruhu şaddır. Onların qisası döyüş meydanında alındı, işğalçı Ermənistana layiq olduğu yer göstərildi.

Artıq bu gündən istər ölkəmizdə, istərsə də işğaldan azad olunan torpaqlarımızda yeni həyat başlayır. Qələbə sevinci hər kəsi daha da ruhlandırmaqla yanaşı, gələcəyə daha böyük addımlarla irəliləməyə stimul oldu. Yaşa, Azərbaycan xalqı! Sən qələbə sevinci yaşamağa layiq məğrur, öz tarixinə sahib çıxan, ədaləti bərpa edən xalqsan!

# XİN: Fransalı nazirin açıqlaması tamamilə qərəzlidir



"Fransanın Avropa və Xarici İşlər üzrə naziri J.İ. Lö Drianın Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən imzalanmış, bütün hərbi əməliyyatların dayandırılması ilə bağlı bəyanata dair verdiyi açıqlama Fransanın ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi qismində mandatına uyğun olmayaraq, tamamilə qərəzli xarakter daşıyır".

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. "Qeyd etmək istərdik ki, birtərəfli və açıq-aşkar ermənipərəst mövqeyi əks etdirən bəyanatla çıxış edən Fransa Xarici İşlər nazirinin digər həmsədr ölkələri adından çıxış etmək səlahiyyəti yoxdur. Fransa Xarici İşlər nazirinin ölkəsinin həmsədr kimi mandatına uyğun olaraq, öz ölkəsinin daimi üzv qismində 1993-cü ildə lehinə səs verdiyi BMT TŞ qətnamələrinin tələblərinin yerinə yetirilməsi bəyanatları ilə çıxış etdiyini təəssüf ki, bu illər ərzində müşahidə etməmişik. Azərbaycanın beynəlxalq tanınmış ərazilərində Ermənistanın silahlı qüvvələrinin qeyri-qanuni mövcudluğuna dərhal son verilməsi və bu ərazilərdən zorla qovulmuş insanların öz evlərinə geri dönməsi tələbinin Fransanın xarici siyasətə məsul qurumu tərəfindən nə zaman səsləndirildiyini xatırlamırıq. Yoxsa münaqişə nəticəsində yüz minlərlə azərbaycanlının fundamental insan hüquqlarının kobud şəkildə pozulması Fransanı maraqlandırmır?!

Azərbaycanın beynəlxalq hüquqa tam uyğun şəkildə, beynəlxalq sərhədləri çərçivəsində ölkənin ərazi bütövlüyünün təmin edilməsi və bir milyondan çox azərbaycanlının insan hüquqlarının bərpa olunması istiqamətində legitim səyləri Fransanı narahat etməməlidir", - qeyd olunub.

# BMT-nin Baş katibi Dağlıq Qarabağ münaqişəsi zonasında atəşkəs haqqında razılaşmanı alqışlayıb



BMT-nin Baş katibi Antonio Quterreş Dağlıq Qarabağ münaqişəsi zonasında döyüş əməliyyatlarının 10 noyabr 2020-ci il tarixdən tamamilə dayandırılması barədə xəbəri rəğbətlə qarşılayıb. Tərəflər müvafiq razılaşmaya Rusiyanın vasitəçiliyi ilə nail olublar, bu barədə Rusiya Prezidenti Vladimir Putin rəsmi elan edib. AZƏRTAC BMT-nin saytına istinadla xəbər verir ki, təşkilatın mətbuat katibi Stefan Düjarrik deyib: "Baş katib döyüş əməliyyatlarının dayandırılması barədə razılaşma əldə olunması faktını rəğbətlə qarşılayıb. Biz Rusiyanın hakimiyyət orqanlarına bu məsələdə oynadıqları müsbət rola görə çox minnətdarıq. Dinc əhalinin iztirabının başa çatacağına ümidlər rahatlıq hissləri əmələ gətirir.

Mülki əhali, humanitar əlçatanlığın təmin edilməsi və insan həyatının xilası məsələləri daim bizim diqqət mərkəzimizdə olub". S.Düjarrik bildirib ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndələri öz mandatına uyğun olaraq, razılaşmanın şərtlərinin yerinə yetirilməsində tərəflərə kömək edəcəklər. Hazırda bu məsələ üzrə danışıqlar aparılır. KİV-lərin yaydığı məlumata görə, əldə olunan razılaşmaya əsasən qaçqınlar və məcburi köçkünlər Dağlıq Qarabağ ərazisinə və ona bitişik rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nəzarəti altında qayıtmalıdır.

# Paşinyan: "Bir il əvvəl Azərbaycanın şərtləri ilə razılaşmaq lazım idi"



Ermənistanın Baş naziri Nikol Paşinyan hesab edir ki, İrəvan 1 il əvvəl işğal altında olan 5 rayonu Azərbaycana qaytarsaydı, Qarabağla bağlı vəziyyət fərqli şəkildə həll oluna bilərdi. Bu barədə RİA Novosti xəbər verib. "Ancaq Ermənistanda kim bu yolun doğru olduğuna inanardı? Mən də daxil olmaqla çox az adam inanmazdı"- baş nazir deyib.

Paşinyan qeyd edib ki, münaqişənin kəskinləşməsinin ilk günləri Ermənistan üçün o qədər də təhlükəli deyildi, bu səbəbdən İrəvan Bakının irəli sürdüyü şərtləri qəbul etmək barədə düşünmədiyini, vəziyyətin 1 il əvvəlki kimi qaldığını hesab edirdi. "Müharibədə bir dönüş yaratmağın mümkün olmadığı və vəzifəmizin hadisələrin ən pis inkişafının qarşısını almaq olduğu aydın olduqdan sonra razılaşmaya getdik"- Paşinyan deyib.

*Elçin*

# Otto Hauzer: Azərbaycan Dağlıq Qarabağı və ətraf 7 rayonu öz tərkibinə qaytarmaq yolundadır



Azərbaycanın Almaniyanın Ştutqart şəhərindəki fəxri konsulu Otto Hauzer Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulması ilə bağlı fikirlərini bölüşüb. AZƏRTAC xəbər verir ki, Otto Hauzer Prezident İlham Əliyevi və Azərbaycan xalqını bu vacib addım münasibətilə təbrik edib. Bildirilib ki, beləliklə, Azərbaycan Dağlıq Qarabağın və ətraf 7 rayonun öz tərkibinə qaytarmaq yolundadır. Otto Hauzer qeyd edib ki, qaçqınların vətənlərinə qayıtmasına dair razılaşma çox vacib humanitar addımdır. Otto Hauzer, həmçinin vurğulayıb: "Ermənistana aydın olmalıdır ki, artıq qan tökülə bilməz. İndi Yerevanda anlayış hökm sürməlidir".

# Türkiyə: Qafqaz regionunda və dünyada güc mərkəzi rolunda

*Ortada isə daha bir reallıq - "Bir millət, iki dövlət" sarsılmaz, əbədi prinsipi dayanmaqdadır*

***Azərbaycanın son illər ərzində regionda və beynəlxalq aləmdə güclü və qüdrətli dövlətə çevrilməsi əlbəttə ki, qardaş Türkiyə dövlətinin də maraqlarına cavab verib və eyni zamanda, Türkiyənin Qafqaz regionunda və dünyadakı nüfuzunun yüksək səviyyədəki mövcudluğu Azərbaycanın bütün maraqlarına cavab verməklə yanaşı, qardaş ölkə ilə bütün istiqamətlərdəki əməkdaşlıq faktoruna önəmli töhfələrini verib.***



Xüsusilə, işğalçı Ermənistanın istər bu ilin iyulunda Tovuzdakı dövlət sərhədimizdə, istərsə də sentyabrın 27-dən başlayaraq, Qarabağdakı təmas xətlərində törətdiyi silahlı təxribatlarının ardınca Azərbaycanın yanında dayanan ölkələrdən biri və birincisi, məhz Türkiyə dövləti oldu. Ermənistanın rəsmi dövləti siyasətinə çevrilmiş terror amili özünü daha çox qabartdıqca, qardaş ölkənin bütün rəhbər şəxsləri başda prezident Rəcəb Tayyib Ərdoğan olmaqla sərt bəyanatlarla çıxış etdilər, o cümlədən, milli müdafiə naziri, xarici işlər naziri, parlament sədri və s. yüksək ranqlı siyasi xadimləri Bakıya, Azərbaycanın dövlət rəsmiləri isə Ankaraya səfərlər etdilər.

Türkiyə sona qədər, birmənalı olaraq özünün mənəvi və s. dəstəyini ölkəmizdən əsirgəmədi

Bu gerçəklik həm də onu sübut etdi ki, Azərbaycan işğal altındakı ərazilərini azad etdiyi zaman, o cümlədən, BMT-ni və s. nüfuzlu beynəlxalq qurumların qətnamə və qərarlarını ədalətli mübarizə yolu ilə həll etdiyi bir vaxtda özünü tək görmədi - Türkiyə sona qədər, birmənalı olaraq özünün mənəvi və s. dəstəyini ölkəmizdən əsirgəmədi.

Məhz bu xüsusdan analiz edərsək, həm də belə bir nəticəyə gəlmək olar ki, əslində, Azərbaycanın Qarabağın azadlığı uğrunda apardığı və artıq həm hərbi, həm də diplomatik cəhətdən qalib kimi ayrıldığı müharibədə Türkiyənin regional təsir gücü özünü daha aşkar şəkildə sübuta yetirmiş oldu. Beləliklə, nəticələri araşdırarkən sual yaranır ki, bəs buradan daha hansı nəticələrə gəlmək olar?

Məlumdur ki, Türkiyə Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirib. Söz yox ki, qardaş ölkənin səmərəli siyasəti daha aydın görünür. Məhz Dağlıq Qarabağ münaqişəsi ətrafında qardaş ölkə yüksək nüfuzunu daha da artırdı, o cümlədən mühüm tərəfə çevrildi.

Azərbaycanın haqlı mübarizəsini apardığı Dağlıq Qarabağda Türkiyə mükəmməl siyasətə imza atmış oldu

Bu arada daha bir mühüm nüans budur ki, Türkiyə Osmanlı imperiyası zamanı təsir etdiyi ərazilərə də öz nüfuzunu göstərməkdədir. Bu, öz yerində...

Lakin dünyanın digər bölgələrində, habelə Azərbaycanın haqlı mübarizəsini apardığı Dağlıq Qarabağda Türkiyə mükəmməl siyasətə imza atmış oldu. Daha dəqiq desək, Türkiyə son onillikdə növbəti dəfə özünü regional güc mərkəzinə çevirdiyini sübuta yetirdi. Həmçinin, liderliyini praktik şəkildə isbatlamış oldu.

Bu arada, Rusiyanın Müasir Türkiyənin öyrənilməsi mərkəzinin direktoru Yuri Mavaşev də bənzər fikirlərini bölüşüb. SİA xəbər verir ki, bu barədə RBK-ya münasibətini açıqlayan rusiyalı ekspert bildirib ki, Cənubi Qafqaz regionuna nəzarət etmədən Türkiyə enerji təhlükəsizliyini təmin edə bilməz.

Rusiyanın Müasir Türkiyənin öyrənilməsi mərkəzinin direktoru Yuri Mavaşev: "Cənubi Qafqaza nəzarət mexanizmi olmasa Türkiyə Yaxın Şərqin tamhüquqlu sahibinə çevrilə bilməz"

"Bu, əsasən boru kəmərləridir. Həm mövcud TANAP, BTC, həm də Mərkəzi Asiya ölkələri üçün perspektivli olan nəqliyyat dəhlizləri baxımından. Bundan əlavə, Cənubi Qafqaza nəzarət mexanizmi olmasa Türkiyə Yaxın Şərqin tamhüquqlu sahibinə çevrilə bilməz", deyə Mavaşev bildirib.

Lakin göründüyü kimi, Türkiyənin dünyada müstəqil siasət yürütməsi, eləcə də bir sıra beynəlxalq əhəmiyyətli qərarların verilməsində özgür qərarlar verməsi artıq bu ölkənin daha böyük miqyaslı söz sahibinə çevirməsini təsdiq edən faktdır.

Beləliklə, istər Qarabağ münaqişəsinin tənmizlənməsi və Azərbaycanın işğalçı Ermənistanı sülhə məcbur etməsi baxımından, istərsə də digər regional məsələlər baxımından, qardaş Türkiyə dövləti aparıcı aktorlardan birinə çevrilib və bu gerçəklikdən əlbəttə ki, Azərbaycan da öz səmərəsini götürməkdədir. Çünki ortada daha bir reallıq - "Bir millət, iki dövlət" sarsılmaz, əbədi prinsipi dayanmaqdadır.

**Rövşən RƏSULOV**

# "Prezident İlham Əliyev zəmanəmizin "Qarabağnamə"sini yazdı"

***Azərbaycan 44 gün davam edən Vətən müharibəsində itirilmiş torpaqlarını geri qaytardı. 30 il işğal altında olan və çoxlarının onun işğaldan azad olunacağına inamsız yanaşdığı Qarabağ azad edildi. Bu müharibə və onun uğurlu nəticəsi Azərbaycan tarixində qızıl səhifədir.***




**Hüseyn Paşayev**
**YAP Siyasi Şurasının üzvü,**
**YAP Mətbuat Xidmətinin rəhbəri**

Qızıl səhifədir, ona görə ki, vaxtilə Azərbaycan xəritəsi Şərqin ən böyük coğrafiyalarından birinə mailk idi. Təəssüflər olsun ki, tarix boyu itirə-itirə gəlmişik. İtirdiklərimizin geri qaytarılması isə, son 300 ildə tamamilə yeni bir səhifədir. Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş bu səhifəni isə xalqımızın Qəhrəman Oğlu, Ali Baş Komandan, Prezident İlham Əliyev yazdı. Qarabağ müharibəsinin qalibi İlham Əliyev bu möhtəşəm zəfəri ilə yenilməz sərkərdə və çox mahir diplomat kimi adını tarixə yazdırdı.

Şah İsmayıl Xətai dönəmindən başlayaraq xəritəsi zaman-zaman kiçilən Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə çoxəsrlik tarixində tarixi dönüşə imza atdı.

Tarixi tapdalanmış, qürurу əzilmiş, minli mənliyi şübhə altına salınmış Azərbaycan xalqı işğalçıları it kimi qovmaqla torpaqlarının əsl tarixinə qaytarmaqla özünü bir millət kimi təsdiq etdi. Bu gün bu torpaqlarda bizimdir, qürurumuz da, ləyaqətimiz də bizimdir. Bu qüruru, bu ləyaqəti, torpaq namusunu Azərbaycan xalqı öz qanı ilə, canı ilə dəmir kimi möhkəm birliyi ilə geri qaytarırdı.

Tarixi hər zaman misilsiz və müqayisəsiz üstün fərqli keyfiyyətləri özündə cəm edən tarixi şəxsiyyətlər və sərkərdələr yazıb. Bu gün Azxərbaycan xalqının şanlı tarixini də Ali Baş Komandan İlham Əliyev yazdı. O, bu qələbəni xalqının inamına və iradəsinə arxalanaraq, əsl zərgər siyasəti ilə qazandı. Böyük Sərkərdəmiz İlham Əliyev bu qələbəni güc ilə, hər zaman düşmənə tərəf tuşladığı dəmir yumruğu ilə qazandı.

Bu mühüribəni Azərbaycan qazandı. Çünki bu onun haqq işi idi. Bu müharibəni xalqımız qazandı. Çünki onun Ulu Öndər Heydər Əliyevin oğlu İlham Əliyev kimi yenilməz lideri vardır. Prezident İlham Əliyev zəmanəmizin "Qarabağnamə"sini yazdı.

Bu gün Qarabağımız azaddır. Mayası bu torpaqdan yoğrulmuş hər bir azərbaycanlı indi başını dik tutur, qürurludur, azad nəfəs alır. İndi hər birimiz hər qarışı Şəhir Qanına boyanmış müqəddəs Qarabağ torpağından halallıq almaq istəyirik. Birinci vitse-prezident Mehriban xanım Əliyeva Vətən müharibəsinin ilk günlərində bir çağırış etdi. O, bu çağırışında bir müqəddəs diləyini, duasını dilə gətirdi - "Qoy Uca Tanrı hər bir Azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin". Bəli, o dua, o dilək bu gün bizim nəsibimiuzdir, qismətimizdir.

"Qarabağ Azərbaycandır!" deyən Prezident İlham Əliyev onu tariximizin gerçəkliyi etdi.

Bəli, bu gün Qarabağ Azərbaycandır! Kimin nə deməsindən, bu xalqa, bu millətə həmişə yara olmuş yarasaların, istər xaricdəki, istərsə də daxildəki murdarların nə üfunət yaymasından aslı olmayaraq, - Qarabağ Azərbaycanındır! Bu böyük həqiqətin altında isə bir imza var - Ali Baş Komandan, Prezident İlham Əliyev.

# Azərbaycanda komendant saatı nə zaman ləğv olunacaq?



Xəbər verdiyimiz kimi, 44 gün davam edən Vətən müharibəsinin dayandırılması ilə bağlı Azərbaycan, Rusiya və Ermənistan arasında 3 tərəfli bəyanat qəbul edilib. Bu gün hər kəsi maraqlandıran məsələ Azərbaycanda komendant saatının nə zaman bitəcəyi və döyüşə cəlb edilən könüllülərin nə zaman evə buraxılacağı ilə bağlıdır.

Bununla bağlı Sonxeber.az-a danışan ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib ki, komendant saatı ilə bağlı qərar cənab Prezident tərəfindən verilib: "Cənab Prezident lazım bilərsə, onun tapşırığı ilə bağlı komendant saatı ləğv ediləcək. Bunun nə zaman olacağını da heç kim bilmir. O ki, qaldı orduya səfərbər olunan şəxslərə, onlar müəyyən hərbi hissələr çərçivəsində tapşırıqlarını yerinə yetirirlər. O hərbi hissələrdə onlara ehtiyac olmadığı təqdirdə, onlar növbəli şəkildə evə geri dönəcəklər.

Bilirsiniz ki, dekabrın 1-nə kimi torpaqların işğalçıdan azad edilməsi ilə bağlı qərar qəbul olunduğu barədə bəyanatda qeyd olunub. Düşünürəm ki, dekabrın 1-nə kimi bizim əsas hərbi vəzifəlilər öz işlərini icra etməyə davam edəcəklər. Ondan sonra onlara ehtiyacın olub-olmadığı məsələsinə baxılacaq. Ehtiyacı olan qədəri qalacaq, yerdə qalanı isə evə göndəriləcək. Bununla bağlı konkret zaman demək olmur. Sadəcə hər şey zərurətdən asılıdır. Əgər ehtiyac olmayacaqsa, heç kim onları bir gün belə, saxlamayacaq".

# Fransaya “selavi” deyə bilərik!

## Qafqaz regionunda iki böyük güc formalaşır və bu güc fransız siyasətçilərinin ermənipərəsət maraqlarını kökündən alt-üst edir və edəcək də

***Əvvəlcədən qeyd edək ki, Qarabağ münaqişəsində istər açıq, istərsə də gizli şəkildə işğalçı Ermənistana dəstək göstərən ölkələrdən biri və birincisi Fransa olub. Ümumiyyətlə, bu ölkənin hətta ATƏT-in Minsk qrupunun həmsədri olmasına baxmayaraq, özünü ermənilərə aşkar tərəf kimi təqdim etməsini sübut edən onlarla faktlar mövcuddur. Hələ Fransanın türk amilinə antipatiya hisslərini nümayiş etdirməsini də buraya əlavə edərsək, artıq nəyin-nə və necə olduğunu tam çılpaqlığı ilə görə bilərik. Elə də uzağa getməyərək, Fransanın qondarma erməni soyqırımını tanımasını, bu qərarı tanımayanlara qarşı ölkə daxilində cəza kəsməsini, o cümlədən, dəfələrlə (!) Türkiyəyə qarşı sanksiya tətqib etmək yönündə çağırışlar etməsini də xatırlaya bilərik.***



Belə olah halda, fransız siyasətinin nəyə görə Azərbaycanın haqlı və ədalətli, eləcə də qalibiyyətlə nəticəsini tapan mübarizəsinə qarşı bu qədər hikkəli yanaşmasını da anlamaq elə də çətinlik yaratmır. Yaratmır ona görə ki, Türkiyə Azərbacanla əsrlərdən bəri gələn qardaşlıq münasibətini saxlayır və kədərini kədər, sevincini də sevinc kimi bölüşür. Bu barədə kifayət qədər danışılıb, yazılıb və bu gün də deilməkdədir. Elə haqlı və ədalətli mübarizəmizdə də Türkiyənin birmənalı (!) siyasi və mənəvi dəstəyi Qarabağımızın geriyə - öz sahibinə, yeni bizə, Azərbaycan dövlətinə, əsgərinə, xalqına qaytarılmasında tarixi, nəhəng rolu oldu.

Bəli, Fransa buna görə narahatlıq keçirir, çünki Qafqaz regionunda iki böyük güc formalaşır və bu güc fransız siyasətçilərinin ermənipərəsət maraqlarını kökündən alt-üst edir və edəcək də, bax bundan narahat olmasınlar. Nə qədər boş-boş bəyanatlar, hay-haraylar qaldırsalar belə, fransız-erməni kontekstindəki bənzər siyasi şivənçiliklər nəticəsiz qalacaq. Artıq nəTürkiyə əvvəli Türkiyədir, nə də Azərbaycan əvvəlki Azərbaycandır. “Bir millət, iki dövlət” tandemi bir vahid faktor olaraq geosiyasi mövqedə ən möhkəm təməllərə söykənir!

### Ermənipərəstlik siyasətlərindəki uğursuzluqlarını isə yaxşı olardı ki, özlərində buraxdıqları boşluqlarında axtarsınlar...

Beləliklə, keçək müsyo fransızlara və elə öz dilləri ilə onlara “selavi” deyək. Yəni həyat budur, gözləmədiyiniz şəkildə hər şey tam əksinə gedə bilərmiş. Ermənipərəstlik siyasətlərindəki uğursuzluqlarını isə yaxşı olardı ki, özlərində buraxdıqları boşluqlarında axtarsınlar...

Deməli, hələ münaqişənin ən qızğın vaxtında Fransa mediası başda prezident Makron olmaqla cızığından çıxaraq, bütün qəbul edilmiş prinsipləri ayaqlayaraq az qala bizimlə hədə dilində danışmağa cəhd göstərdi, bəli məhz cəhd göstərdi. Ancaq onun bu cəhdi ali rəhbərliyimiz tərəfindən lazımi qaydada verildi. Çünki bu həmin Makrondur ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevə telefon zəngi açarkən, atəşkəsin əldə olunmasını tələb etmişdi. Bax onda sual yaranmışdı ki, ATƏT-in Minsk qrupunun həmsədri olan bir ölkənin rəhbəri nəyə görə illər boyu problemin həll olunmasından narahatlığını ifadə etmədi? Ermənistanın yeni ərazilər işğal etmək niyyətinə qarşı səsini ucaltmadı? Və ya (!) Ermənistanın baş nazirinə zəng edərək dərhal işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasını istəməli..?!

Və o həmin Makrondur ki, həmin telefon zəngindən əvvəl ermənilərə xitabən bəyan etmişdi ki, “Fransa öz rolunu oyanyacaq”, “Dağlıq Qarabağın yenidən fəth olunmasına icazə verməyəcək”, “Sona qədər müqavimət göstərəcək” və s.

Təbii ki, dövlətimizin başçısı layiqli cavabını verdi və dinc əhalimizin atəşə tutulması faktlarını, eləcə də işğal altındakı torpaqlarımızın tam azad olunmayacağı halda heç bir atəşkəsin olmayacağını vurğuladı. Beləliklə, fransızların ali müsyösü öz lazımi cavabını almış oldu.

### Torpaq Azərbaycanın, maraq Ermənistanın? - xeyir ola?

İndi cənab Makron yenidən “narahat” olub və onun dırnaqarası narahatlığı əlbəttə ki, yenə də işğalçı, lakin bu dəfə həm də məğlub (!) erməni məkrinə dəstək göstərməkdən ibarətdir. Bu adam Reuters-ə verdiyi açıqlamasında deyir ki, Qarabağ üzrə qəbul edilmiş istənilən uzun müddətli həll variantı Ermənistanın maraqlarına cavab verməlidir (?!) Diqqət edin: Torpaq Azərbaycanın, 30 il işğal altında qalmış və istismar edilən yataqlar Azərbaycanın, bu illər ərzində evlərindən, yurd-yuvalarından məhrum olmuş azərbaycanlılar, amma maraqlar Ermənistanın! Xeyir ola? Niyə ki..? Hansı əsaslarla..?

### Hələ bu harasıdır?!

“Fransa rəhbərliyi Türkiyəni regionda təxribatlara və əldə edilmiş razılaşmaya qarşı fəaliyyətdən kənarda dayanmağa çağırır”, deyən Makron hansı səbəbdən, əlində olan hansı haqlarından istifadə edərək belə bir fikir səsləndirir? Halbuki məhz Türkiyənin regiondakı fəaliyyəti sayəsində atəşkəs sazişi imzalandı, bəs Fransa nə etdi? Bu artıq bəllidir!

### Fransız-erməni həyasızlığının yüksək səviyyədə nümayişi

Amma Makronun bu kimi məntiqsiz və lazımsız fikirləri dünya KİV-lərində yayılar-yayılmaz Fransanın xarici işlər naziri Jan-İv Le Drian da dərhal ağasının dediklərinə bənzər düşüncələri ilə ürək bulandırmağa cəhd göstərdi - özü də hədəf yalnız Türkiyə olmadı, o həm də qalib Azərbaycana dil uzadaraq fransız-erməni həyasızlığını yüksək səviyyədə nümayiş etdirmiş oldu. Məsələn dedi ki, ölkəsi Türkiyəni aqressiyaya yönəlmiş fəaliyyətdən yayınacağını gözləyir.

Yaxud, atəşkəsin nail olunmasından sonra, Fransa Azərbaycanın qəbul edilmiş razılaşmaya ciddi əməl edəcəyini gözləyir və s. Əcəba, Azərbaycanın Fransa qarşısında üzərinə götürdüyü hər hansı bir öhdəliyimi var? Və ya nəyə görə Fransa Minsk qrupunun həmsədri olaraq bitərəf mövqe tutmur, ancaq işğalçı rejiimə dəstək göstərir? Bəlkə “möhtərəm” müsyö bunu bizə izah etsin, yaxud hesabat (!) versin?! Heç bu da son deyil!

### İşğalçıya dəstək göstərmək üçün kiçik də olsa işıq ucu görünə biləcək deşik axtaran müsyölər özlərini ruslar demişkən, “vajnıy persona” ya da türklər demiş, “hayali akıllı” hesab edirlər

Fransanın həmsədr ölkə olaraq münaqişəni həll etmək yerinə, odun üzərinə benzin tökməsi qalsın bir yana, üstəlik əldə olunmuş üçtərəfli razılaşmanı “analiz” edib nəticələr çıxaracağını da həyasızcasına bəyan edir. Baxın: “Bu gecə Ermənistan, Azərbaycan və Rusiya hakimiyyətləri Dağlıq Qarabağda atəşkəs müqaviləsi ilə bağlı razılaşma əldə etdilər. Biz onunla tanış olduq və nəticələrin parametrlərini analiz edirik. Dəqiqləşdirmələr aparılır ki, onların mahiyyətini qiymətləndirək”.

### Maraqlıdır, razılaşmadakı sözlər, müddəaların mahiyyəti o qədərmi anlaşıqsızdır ki, fransalı rəsmilər onun üzərində oturub “baş sındırmaqla” məşğuldurlar? Onlar hansı parametrlərdən danışırlar ki, hələ üstəlik dəqiqləşmələr də aparırlar?

Təbii ki, bu çox gülünc bir təsir bağışlayır və açıq-aşkar işğalçıya dəstək göstərmək üçün kiçik də olsa işıq ucu görünə biləcək deşik axtaran müsyölər özlərini ruslar demişkən, “vajnıy persona”, ya da türklər demiş “hayali akıllı” hesab edirlər. Ancaq daha belə deyil və daha heç nə əvvəlki kimi deyil. Yaxşı olardı ki, ermənipərəstlik mövqelərini kənara qoymaqla bir dəfə də həqiqətin yanında dayansınlar. Çünki bilmək olmaz, Fransada yaşayan erməni lobbisi sabah onların da Marsellərinə göz dikərək, “qədim erməni ərazisi” adı altında tələblər irəli sürə bilərlər. Bax onda biz də fransız siyasi müsyölərə elə öz dillərində “selavi” deyə bilərik...

**Rövşən RƏSULOV**

# Fransa mətbuatında MATƏM!

***Məğlub olan Ermənistanın Bərdə şəhərində bir çox mülki yaşayış məntəqəsində həyata keçirdiyi qanlı hücumlara məhəl qoymayan Fransa mətbuatı, Dağlıq Qarabağ razılaşmasından sonra rəsmən yas havasına bürünüb. SİA bunu xarici KİV-lərə istinadən xəbər verir. France 24-dəki xəbərlərdə “Ermənilər Dağlıq Qarabağ müqaviləsini tamamilə kapitulyasiya olaraq görürlər” deyə şərh edilib. Le Monde qəzetinin saytında yer alan xəbərlərdə isə “İrəvanın məğlubiyyəti bu razılaşma ilə təyin olundu” başlığı altında verilib.***




### Avropanın Paşinyanla bağlı peşmanlığı

Qərb mediasında Azərbaycanın qələbəsinin daha bir məqamı Avropanın Ermənistan Baş naziri Nikol Paşinyanla bağlı məyusluğu idi. Fransada yerləşən AFP xəbər agentliyində “Qəhrəmanlıqdan xəyanətə” başlığı ilə Paşinyanın karyerası xatırlanıb. Xəbərdə Paşinyanın 2018-ci ildəki nümayişlərdən sonra qəhrəman kimi vəzifəyə başladığı, ancaq 6 həftəlik qarşıdurmalardan sonra indi xalqı tərəfində “vətənə xayinlik”də günahlandırıldığı nəzərə çatdırılıb.

***Aysel Məmmədova***

# Azərbaycanda 1 202 nəfər COVID-19-a yoluxub , 998 nəfər sağalıb, 18 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 202 yeni yoluxma faktı qeydə alınıb, 998 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 18 nəfər vəfat edib.




İndiyədək ölkədə ümumilikdə 68 594 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 51 007 nəfər müalicə olunaraq sağalıb, 885 nəfər vəfat edib, aktiv xəstə sayı 16 702 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 665, ötən müddət ərzində isə ümumilikdə 1 467 842 test aparılıb.

# NEWS.RU: Azərbaycan Qarabağda hərbi və diplomatik qələbə qazandı

## Paşinyan "Dağlıq Qarabağ"ın xüsusi statusu ilə vidalaşdı və impiçment təhlükəsi ilə üzləşdi

Qarabağ zonasında bir yarım ay davam edən müharibə sülh müqaviləsi ilə sona çatdı. Noyabrın 10-da gecə sənəd Rusiya və Azərbaycan prezidentləri, eləcə də Ermənistanın baş naziri tərəfindən razılaşdırıldı. İrəvan faktiki olaraq Bakının şərtlərini qəbul edərək bölgə ərazisinin yalnız kiçik bir hissəsin ermənilərin yaşama şərtini saxlayaraq münaqişədə təslim oldu. Ermənistanın Baş naziri Nikol Paşinyan mövcud vəziyyəti müxalifət arasında duyğu fırtınasına səbəb olan "böyük uğursuzluq" adlandırdı, çünki Ermənistan bu məsələni az qanla- böyük insan itkisi və iqtisadi çöküş olmadan həll etmək şansına sahib idi.

Hərbi kampaniyanın belə bir nəticəsi, bir tərəfdən, Azərbaycanın hərbi və diplomatik qələbəsini nümayiş etdirir, Rusiyanın münaqişənin həllində mühüm rolunu vurğulayır və eyni zamanda Ermənistanın Baş naziri Nikol Paşinyanın siyasi gələcəyini şübhə altına alır.

Ənənəvi olaraq Rusiya, ABŞ və Fransanın həmsədr olduğu ATƏT-in Minsk Qrupu, Qarabağdakı nizamlanmaya cavabdeh idi. Lakin bu dəfə Qərb qüvvələri, fəal ritorikaya baxmayaraq, İrəvanın erməni lobbisinin fəaliyyətinə arxalanaraq onlara müraciət etməsinə baxmayaraq vəziyyətə heç bir təsir göstərə bilmədi.

### Müdafiənin dağılması

Qarabağ zonasında hərbi əməliyyatların intensivləşməsi 27 sentyabrda başladı: İrəvan və Bakı qarşıdurmanın böyüməsi ilə bağlı qarşılıqlı ittihamlar etdilər və hərbi vəziyyət tətbiq etdilər. Ermənistan total səfərbərlik elan etdi, Azərbaycan isə qismən.

Başlanan döyüş əməliyyatları, 1994-cü ildə 1-ci Qarabağ müharibəsi bitdikdən sonra bölgədəki ən böyük müharibə halına gəldi. Lakin, məlum olduğu kimi, o vaxtdan bəri, Ermənistan qüvvələri öz müdafiələrini müasir qarşıdurma şəraitində yaramayan mövqe münaqişəsinin köhnə nümunələri əsasında qururlar. Azərbaycan komandanlığı isə düşmən mövqelərində taktiki ehtiyatların cəmləşdiyi yerlərə top və raket silahları və pilotsuz təyyarələrlə və uzun müddətli zərbələr vurduqdan sonra cinah hücumlarından ərazi hissələrini metodik olaraq "gəmirməyə" və cəbhənin ayrı-ayrı hissələrinin irəliləməsinə doğru hərəkət edərək taktikanı sürətlə dəyişdirdi.

Bundan əlavə, Ermənistan müxtəlif sahələrdə bir boşluq yaşadı: hava hücumundan müdafiə sisteminin yaradılmasından tutmuş ciddi mühəndis istehkam manеələrinin və kamuflyajın olmamasına qədər. Azərbaycan Silahlı Qüvvələri öz növbəsində onsuz da ilk günlərdə düşmənin hava hücumundan müdafiə sistemlərinin maksimum tükənməsi üçün bir yol müəyyənləşdirərək düşməni, məsələn, An-2 təyyarəsinin pilotsuz versiyası da daxil olmaqla, saxta hədəflərə olan raketlər atmağa təhrik etdi.

Belə pilotsuz təyyarələrin uçuşları diqqəti yayındırdı və Türkiyədən alınan "Bayraktar" pilotsuz təyyarələri və İsraildən alınan "Harop" kamikaze pilotsuz təyyarələri metodik olaraq erməni hərbi texnikasını əzdi. Azərbaycan pilotsuz təyyarələrinin S-300PS zenit sisteminin buraxıcıları var. Ümumilikdə, döyüş əməliyyatları zamanı Ermənistan ordusu azı 6 ədəd S-300PS raket qurğusunu, onlarla OSA-AKM və "Kub" tipli Sovet hava hücumundan müdafiə sistemlərini, həmçinin ən azı 250 tankı və onlarla digər zirehli texnikanı itirdi.

Rus mütəxəssislər birbaşa bəyan edirlər: mövcud vəziyyət təkcə PUA-ların, yüksək dəqiqlikli Lora və Polonez komplekslərinin, habelə Spayk-ın istifadəsini birləşdirən Azərbaycanın ləyaqəti deyil, eyni zamanda Ermənistanın hərbi planlaşdırmasının tam uğursuzluğudur.

4 oktyabrda Azərbaycan qoşunları digər yaşayış məntəqələri ilə bərabər, müvəqqəti təmas xəttində yerləşən Madagiz kəndinə də nəzarəti ələ keçirdilər. Bu müvəffəqiyyətin böyük simvolik əhəmiyyəti var idi, çünki bu, Bakıya Ermənistanın müdafiəsinin yarılmasında bir sıçrayış elan etmə imkanı verdi.

"Artıq təmas xətti yoxdur. Biz onu keçdik. 30 ildir bu təmas xəttini tikirdilər"- Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində dedi.

### Əməliyyat azadlığı

Hərbi əməliyyatların başlamasından 2 həftə sonra Rusiya diplomatiyası döyüşən tərəfləri barışdırmağa çalışdı. Rusiya, Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında oktyabrın 10-da gecə Moskvada keçirilən 11 saatlıq danışıqlar İrəvan və Bakının atəşkəs razılaşmasını imzalamasına səbəb oldu.

Lakin, ertəsi gün Ermənistan silahlı qüvvələri Azərbaycanın Gəncə şəhərini və münaqişə zonasına daxil olmayan digər şəhərlərini atəşə tutdu, nəticədə mülki vətəndaşlar öldürüldü. Buna cavab olaraq Azərbaycan Silahlı Qüvvələri əks-hücumlarını davam etdirərək, Qarabağın mərkəzinə doğru hərəkət etdi.

12 oktyabrda döyüş əməliyyatlarının intensivliyi kəskin şəkildə artdı, bu həm itkilərin artmasında, həm də ərazi üçün strateji silahların hər iki tərəfində: əməliyyat-taktiki raketlər və uzaq mənzilli raketlərin aktiv istifadəsində nəzərə çarpdı. Ermənistan tərəfi pilotsuz təyyarələrdən daha tez-tez istifadə etməyə başladı, lakin Azərbaycan havadakı üstünlüyünü qorudu.

3 həftə ərzində cəbhənin dar cənub sektorundakı bir irəliləyiş Bakı üçün ciddi bir əməliyyat uğuru oldu: hərbi ekspert Viktor Muraxovskinin qeyd etdiyi kimi, hücumçular təşəbbüsü ələ aldılar və əməliyyat qüvvələrinin zərbələrinin istiqamətini dəqiqləşdirdilər.

Hadrut və Füzulini ələ keçirərək cinahlarının sabitliyini təmin edən Azərbaycan qoşunları ciddi müqavimət görmədən Ermənistan sərhədinə doğru hərəkət etdilər-düşmənin mövqelərini qoyub qaçan və sürətlə təslim olan dəstələrini keçərək oktyabrın 21-nə qədər Azərbaycan ordusu İranla bütün sərhəddini nəzarətə götürdü, digər tərəfdən isə Laçın dəhlizinə çatdı.

Eyni zamanda, cəbhədəki uğursuzluqlar Ermənistan ordusunun mənəvi-psixoloji cəhətdən də pozulmasına gətirib çıxardı və fərarilər çoxaldı. 29 oktyabrda qondarma "Dağlıq Qarabağ Respublikası"nın "prezidenti" Arayik Harutyunyan, Azərbaycan ordusunun bölgədə 2-ci ən böyük şəhər olan Şuşaya doğru irəliləməsini könülsüz qəbul edərək, yerli bir deyimi xatırladı: "Kim Şuşaya nəzarət edirsə, Qarabağa da nəzarət edir".

Zirehli texnikanın irəliləməsinin çətin olduğu və irəliləyən qruplara digər yüksəkliklərdən atəş açmağa açıq olduğu dağlıq ərazi, erməni tərəfinə müdafiənin uğurlu olacağına ümid verdi. Eyni zamanda, son günlər Azərbaycan artilleriyadan və zərbə dronlarından istifadə etmirdi. Bildiyiniz kimi pilotsuz təyyarələr yalnız atəşlə məşğul olmurdu, həm də psixoloji üstünlüyü təmin edirdi. Onların zərbələrindən Ermənistan ordusu zirehli maşınlarda, hava hücumundan müdafiə sistemlərində və digər ağır texnikalarda böyük itkilərə məruz qaldılar- Bakının bəyanatlarında deyilirdi.

4 noyabr tarixinə qədər azərbaycanlılar Şuşanın cənubundakı dağları və şəhərdən Laçına gedən yolu möhkəm nəzarəti altına ala bildilər. Noyabrın 5-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələrinin xüsusi təyinatlı qüvvələri magistral yola çatıb birbaşa yaşayış məntəqəsinin üzərində dayandığı qayalara tərəf getdilər. Tarixini 18-ci əsrdən (şəhərin qala divarları 1750-ci ildə Pənah Əli Xan tərəfindən Qarabağ Xanlığını qorumaq üçün ucaldılıb) bəri davam etdirən Şuşa 8 noyabrda Azərbaycan ordusu tərəfindən nəzarətə alındı. Şuşa üzərində nəzarətin itirilməsi və qonşu Xankəndinə- Qarabağın mərkəzi və ən böyük şəhərinə hücumun inkişafı, ertəsi gün Qarabağdakı erməni rəhbərliyi tərəfindən etiraf olundu.

### Müharibəni beynəlmiləlləşməyə cəhd

Hərbi kampaniya İrəvanın çoxsaylı ittihamları ilə müşayiət olundu: guya Yaxın Şərqdən muzdlular Azərbaycan tərəfində vuruşur və Bakı türk mütəxəssislərinin və texnikasının köməyinə müraciət edir. Ancaq erməni tərəfi bu ifadələrə inandırıcı dəlil təqdim edə bilmədi. Eyni zamanda, münaqişəni beynəlmiləlləşdirməyə çalışan Paşinyan özünü dalana dirədi- Qarabağdakı müharibəyə PKK dan olan kürd döyüşçülərin və xaricdən könüllülərin erməni diasporu tərəfindən cəlb olunması xəbərləri arasında.

Cəbhədəki uğursuzluqlardan əziyyət çəkən Nikol Paşinyan, qarşıdurmaya kənar iştirakçıları cəlb etmək üçün hər yolla çalışdı. Beləliklə, baş nazir Türkiyənin rolu barədə danışarkən açıq şəkildə Qarabağdakı münaqişənin Rusiya və İran üçün birbaşa təhdid olduğuna işarə etdi və bu cür bəyanatları Kremlin neytral mövqeyini İrəvan tərəfindən müharibəyə müdaxilə mövqeyinə çevirməyə məcbur edəcəyinə inandı.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Moskvanın dəstəyini ala bilməyən erməni tərəfi, Avropa liderləri ilə fəal şəkildə danışıqlar aparırdı və Ermənistan prezidenti hətta NATO qərargahını da ziyarət etdi. Oktyabr ayında erməni xarici işlər naziri və onun Azərbaycandan olan həmkarı ABŞ dövlət katibi Mayk Pompeo ilə görüşlərə dəvət edildi. Lakin İrəvanın ABŞ-da prezident seçkiləri ərəfəsində erməni lobbisi kozirını işə çalmaq cəhdi baş tutmadığı kimi, məsləhətləşmələrin birbaşa təsiri də olmadı.

Aydındır ki, məhz bu amillər kompleksi- Azərbaycan ordusunun cəbhədəki uğurları, İrəvanın xarici dəstəyinin olmaması ilə birlikdə- Ermənistan rəhbərliyinə müqavimətin davam etməsinin mənasızlığını başa düşərək Azərbaycan qoşunlarının Xankəndinə doğru irəliləməsini inkar etməyə cəhd göstərmədən sülh sazişini qəbul etməsinə gətirib çıxardı.

Üçtərəfli atəşkəs müqavilələri yalnız döyüş əməliyyatlarının bitməsini deyil, həm də Ağdam, Kəlbəcər və Laçın rayonlarının, eləcə də Qazax rayonunun bir hissəsinin Azərbaycana qaytarılmasını nəzərdə tutur. Razılaşma bəyanatında Qarabağın xüsusi statusuna yer verilmədi.

Azərbaycan qüvvələri artıq ələ keçirilmiş Şuşa şəhəri də daxil olmaqla, hücum zamanı tutduqları bütün mövqelərdə qalacaqlar. Rusiyadan ümumi sayı 2 min nəfərə yaxın olan bir sülhməramlı kontingent artıq bölgəyə gətirilib.

Paşinyana görə barışığa razılaşmaq "çətin bir qərar" idi və dövlət liderlərinin ortaq bəyanatının mətni onun üçün "ifadə edilə bilməz dərəcədə ağrılıdır". Baş nazir məğlubiyyətini etiraf etməkdən imtina etdi, baxmayaraq ki, insan qüvvəsi, hərbi texnika və iqtisadiyyatdakı çöküşdən sonra necə və hansı vasitələrlə intiqam alacağını deyə bilmədi.

Ancaq xaricdə yaşayan müxalifət və etnik ermənilər belə ifadələrdən çəkinmirlər. Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın kürəkəni, uzun müddət Paşinyanla müxalifətdə olmuş, Vatikandakı keçmiş səfir Mikael Minasyan Facebook-da baş nazirin insanları "qələbə" vədləri ilə aldatmaqda günahlandırıb. "Lənət olsun sənə, Nikol"- o yazıb.

17 müxalifət partiyasının nümayəndələri kollektiv bir bəyanat yayaraq üçtərəfli bəyanatı "tariximizin ən biabırçı səhifəsi" adlandırdılar. Torpaq və dövlətçiliyi qoruyan əsgərlərin arxasında və hamımızın cəbhədə qanı üzərindən xain bir müqavilə imzalandı,- deyə vurğuladılar.

Rejissor və televiziya aparıcısı Tiqran Keosayan Paşinyanın "parça-parla ediləcəyini" irəli sürdü və özündən əlavə etdi: "Cəhənnəmdə yan, eybəcər məxluq!" Uzun müddətdir ki, Ermənistanın baş naziri ilə qiyabi müzakirə aparan həyat yoldaşı Marqarita Simonyan da oxşar ifadəni işlədərək "indi eyni fikirlər İrəvanda, Paşinyanın Feysbuk-unda və mənim mətbəximdə hökm sürür" dedi.

Gecə İrəvan sakinləri parlamentin binasına basqın etdilər, spiker Ararat Mirzoyanı döydülər və naməlum bir yerdə gizlənməyə davam edən Paşinyanın iqamətgahını talan etdilər.

Etirazçılar baş nazirin impiçment edilməsini və hakimiyyətin dərhal orduya verilməsini tələb edirlər. Bunu qanuni olaraq etmək hələ də real deyil: barışıq razılaşmasından əvvəl də 17 erməni partiyasının Paşinyanın istefasını tələb etməsinə baxmayaraq, Ermənistan parlamentindəki yerlərin əksəriyyəti (132-dən 88-i) indi baş naziri dəstəkləyən "Mənim addımım" partiyasının fraksiyasına məxsusdur. Bundan əlavə, respublikada hələ də hərbi vəziyyət qüvvədədir, bu da rəhbər dəyişikliyinə imkan vermir.

***Müəllif: Renat Abdullin***
***Tərcümə: Elçin Bayramlı***

## Gələn il Bakıda keçiriləcək Formula 2 yarışının vaxtı açıqlanıb




Formula 2 yarışlarının 2021-ci il mövsümünün təqvimi açıqlanıb. AZƏRTAC xəbər verir ki, çempionat martın 26-28-də Bəhreyndə start götürəcək. Mövsümə dekabrın 3-5-də Əbu-Dabidə yekun vurulacaq. Mövsümün üçüncü mərhələsinə Azərbaycan ev sahibliyi edəcək. Yarış iyunun 4-6-da Bakı şəhər halqasında keçiriləcək. Formula 2 yarışı yeni mövsümdə 8 mərhələdən ibarət olacaq.

## Konor Makqreqor və Castin Puarye arasında ikinci görüş keçiriləcək



İrlandiyalı MMA döyüşçüsü Konor Makqreqor və amerikalı Castin Puarye yanvarın 23-də Las-Veqasda "UFC 257" çərçivəsində ikinci görüşü keçirməyə razı olublar. "MMA Fighting" portalının yazdığına görə, irlandiyalı döyüşçünün dekabrın 12-də "UFC 256" çərçivəsində revanş keçirilməsinin tərəfdarı olmasına baxmayaraq artıq bu razılaşmanın bütün detalları açıqlanıb. Qeyd edək ki, döyüşçülər əvvəlcə dekabrın 12-də Dublində xeyriyyə sparrinqi keçirməyi düşünürdülər.

Xatırladaq ki, K.Makqreqor və C.Puarye arasında UFC-də ilk döyüş 2014-cü ilin sentyabrında baş verib və ilk raundda irlandiyalı qələbə qazanıb.

## Alimlər: Əllərin yuyulması dezinfeksiyaedici vasitələrdən üstündür



Dezinfeksiyaedici vasitələr rahat və istifadə üçün asan ola bilər, lakin əllərin sabunla və su ilə yuyulması kimi effektiv deyil. "MedikForum" saytında yer alan məlumatda deyilir ki, bu barədə alim və Penn State Health (ABŞ) həkimi Ronald Nyuman bildirib. O qeyd edib ki, əllərin təmizliyinin qorunmasına gəldikdə əllərin ənənəvi yuyulması dezinfeksiyaedici vasitələrdən üstün hesab edilir.

Təmizləmə zamanı sabun dərinin səthini bütün çirk və mikrobların hissəciklərindən azad edir deyən R.Nyuman əlavə edib ki, əlinizdə olan hər hansı bir çirk və ya kir sabun köpüyündə yığılır. Onun sözlərinə görə, ən yaxşı nəticə əldə etmək üçün əllərinizi təxminən 20 saniyə ərzində axan suyun altında sabun ilə güclü bir şəkildə ovuşdurmalısınız.

İnsanların yalnız dezinfeksiyaedici maddələrə etibar etməməsinin başqa bir səbəbi də onların müəyyən patogenlərə qarşı xüsusilə təsirli olmamalarıdır. Bu cür patogenlər nümunələrinə norovirus, Cryptosporidium adlandırılan parazit və Clostridium difficile adlandırılan bakteriya aiddir.

Bundan əlavə, dezinfeksiyaedici vasitələr sabun və sudan fərqli olaraq pestisid və ağır metal kimi bəzi kimyəvi maddələrə qarşı təsirli deyil. "Təmasda nə ilə olduğunuzdan asılı olaraq əllərin sabun və su ilə düzgün yuyulması, əslində, əllərinizi daha çox mikrobdan - bəzi kimyəvi maddələrdən təmizləyə bilər", - deyə o bildirib.

## Türkiyəli aktyor Şener Şen koronavirusa yoluxub



Məşhur türkiyəli aktyor Şener Şen koronavirusa yoluxub. SİA-nın məlumatına görə, test nəticələri müsbət çıxan 78 yaşlı aktyor dərhal xəstəxanaya yerləşdirilib. Şener Şenin hazırda səhhətinin yaxşı olduğu bildirilib.

## "Bakcell"dən müəllimlər üçün xüsusi tarif

*Şirkət "Virtual Təhsilə Dəstək" layihəsinin rəsmi mobil tərəfdaşıdır*




Bakcell, ENGINET şirkəti və partnyorları tərəfindən Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən layihənin rəsmi mobil tərəfdaşı olub. "Virtual təhsilə dəstək" layihəsinin məqsədi Covid-19 pandemiyası zamanı təhsil sahəsində çalışan insanlara keyfiyyətli virtual tədrisin təşkili üçün tələb olunan alət və texniki dəstəyin göstərilməsidir.

Belə ki, Bakcell "Virtual təhsilə dəstək" layihəsində iştirak edən minlərlə müəllim üçün xüsusi tarif hazırlayıb. Bu tarifdən istifadə edən müəllimlər pulsuz mobil nömrə əldə edərək ayda cəmi 5 manat ödəməklə öz həmkarları ilə pulsuz danışacaq, həmçinin ayda 1 GB internet və ölkədaxili zənglər üçün 100 dəqiqə qazanacaqlar. Bu və digər oxşar layihələrə dəstək göstərməklə Bakcell şirkəti Azərbaycanda rəqəmsallaşma prosesinə öz mühüm töhfəsini verir.

Qeyd edək ki, təşəbbüs çərçivəsində təqdim olunan üstünlük və güzəştlərdən yararlanmaq üçün müəllimlər "Virtual təhsilə dəstək" layihəsində iştirak etməlidir. Daha ətraflı məlumat almaq üçün *1199 nömrəsinə (ENGINET şirkətinin zəng mərkəzi) zəng etmək və ya www.birlink.az səhifəsinə daxil olmaq kifayətdir.

Layihəyə qoşulmuş bütün təhsil işçiləri ENGINET şirkətinə məxsus "BİRLink" brendi tərəfindən ödənişsiz olaraq iki ay ərzində 30 MB/s yüksəksürətli genişzolaqlı internet xidməti, İPTV, ödənişsiz qoşulma və istifadə üçün avadanlıqla təmin olunacaqlar. Bundan əlavə, "Virtual Məktəb" platforması üzərindən qeydiyyatdan keçən müəllim və şagirdlər lisenziyalı Microsoft Office 365 proqramlarını ödənişsiz yükləyə biləcəklər. Layihə çərçivəsində də müəllimlər məsafədən tədris üçün lazımı texniki biliklərin artırılması məqsədilə Təhsildə İnnovativ Texnologiyalar Əlavə Təhsil Mərkəzi (İTE) tərəfindən keçirilən təlimlərdə endirimli iştirak, "Smart Electronics" mağazalar şəbəkəsindən distant tədris üçün lazımı elektronika avadanlıqlarına xüsusi endirimlər və digər güzəşt və fürsətlərdən yararlanacaqlar.

Uşaqların inkişafı və təhsilini xüsusi diqqət mərkəzində saxlayan Bakcell şirkətinin həyata keçirdiyi "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində hər il yüzlərlə uşağın təhsilinə və sosial rifahının yaxşılaşdırılmasına töhfə verilir.

## Azərbaycan bayrağı!





Qarabağ uca tut daim başını
Səslə öz qoynuna türk qardaşını
Əzizlə hünərvər can sırdaşını
Səfalı torpaqda qurun-yaradın
Bütün cahan görsün bu təmtarağı
Enilməzdir Azərbaycan bayrağı!
Şuşada ucalsın Xan şikəstəsi...
Aləmə yayılsın Bülbülün səsi
Dünyaya ərmağan elin müjdəsi
Könüllərin çiçəklənən baharı...
Uca zirvələrin sənsən vüqarı...
Ulu, uca Azərbaycan bayrağı!
Şad xəbər çatdırdı Prezident İlham
Qüdrətli Orduya böyük ehtiram
Qəlblərdə oyandı sabaha inam...
Əzəmətli, çox ucadır Şahdağı...
Vətən öpdü şəhid yatan torpağı
Möhtəşəmdir Azərbaycan bayrağı!

**Mürsəlova Ofelya Mürsəl qızı**
**ADPU-nın sabiq müəllimi**

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600